

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 7 (24.493)

21 fevral 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Belqrad səfəri:



## Azərbaycan-Serbiya strateji tərəfdaşlığında yeni perspektivlər

Serbiya Azərbaycanın Avropa məkanında hərtərəfli münasibətlərin inkişafına böyük önəm verdiyi geniş perspektivə malik ölkələrdəndir. Təqdirəlayiq haldır ki, liderlərin şəxsi dostluğu zəminində əlaqələr son illərdə daha da dərinləşərək strateji tərəfdaşlıq xarakteri alıb. Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində yeni reallıqlar fonunda regional güc mərkəzi kimi çıxış edən respublikamız Serbiya ilə nəinki ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əlaqələr mühiti formalaşdıra bilib. Müasir çağırışlar və yeni dünya nizamının formalaşdırılması fonunda birgə fəaliyyətə dair yol xəritəsinin müəyyənləşdirilməsi, perspektivlərin dəyərləndirilməsi baxımından dövlət başçılarının qarşılıqlı səfərləri, keçirilən yüksəksəviyyəli görüşlər mühüm rol oynayır. Fevralın 15-də Prezident İlham Əliyevin Belqrada rəsmi səfəri də əməkdaşlıqların yeni istiqamətlər üzrə dərinləşdirilməsi üçün faydalı müzakirələrin aparılması və mühüm qərarların verilməsi ilə nəticələndi.

Səhifə ➡ 2

# Xalqa xidmət amalı



Səhifə ➡ 6-7

# Belqrad səfəri: Azərbaycan-Serbiya strateji tərəfdaşlığında yeni perspektivlər

## Liderlərin strateji siyasəti, ölkələrin coğrafi mövqeyi

(əvvəli 1-ci səhifədə)

Serbiya ilə Azərbaycanın yaxınlaşmasını şərtləndirən birinci mühüm amil liderlərin strateji siyasəti və möhkəm dostuqlarıdır. Prezident İlham Əliyevin müdrik xarici siyasət doktrinası və liderlik məharəti bu ölkənin rəhbərində böyük rəğbət və dərin hörmət hissi doğurub desək, yeridir. Elə fevralın 15-də Belqradda Aleksandar Vuçiçin mətbuata bəyanatındakı yüksək fikirləri də dediklərimizi tam təsdiqləyir: "Mən Azərbaycan xalqına, şəxsən Sizə möhtərəm cənab Prezident, böyük ehtiramımı ifadə etmək istəyirəm. Həmçinin Serbiya xalqı qarşısında və əlbəttə, Azərbaycan xalqı qarşısında söyləmək istəyirəm ki, hər dəfə Sizinlə danışanda çox şey öyrənirəm, bir çox məsələləri təcrübəli dövlət xadimi, həqiqi liderin fərqli baxış bucağından müşahidə etməyə müvəffəq oluram".

Azərbaycan-Serbiya münasibətlərinə qırılmaz körpü salan, yeni ikitərəfli əməkdaşlıq mühiti formalaşdıran digər bir nüans isə ölkələrin oxşar coğrafi mövqedə və strateji ərazidə yerləşməsidir. Belə ki, Serbiya Balkan regionunda nəqliyyat qovşağı rolunu oynadığı kimi, Azərbaycan da Orta Dəhliz üzərindən Avropa ilə Asiyanı birləşdirən tranzit imkanlarına malikdir. Bu iki xəttin kəsişməsi isə təbii olaraq logistika, kənd təsərrüfatı məhsulları, tikinti materialları və sənaye avadanlıqları üzrə qarşılıqlı ticarət üçün real baza yaradır. Bu xüsusda ikitərəfli münasibətlərin iqtisadi, ticari cəhətdən vahid konsepsiya əsasında inkişafı baxımından 2011-ci ildə yaradılmış Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın rolu da danılmazdır. Komissiyanın uğurlu fəaliyyətinin nəticəsidir ki, son 13 ildə ölkələrarası ticarət dövriyyəsi böyük sürətlə artmağa başlayıb. Nəticə etibarilə, 2012-ci illə müqayisədə xidmətlər sahəsində ticarət dövriyyəsi 16 dəfə çoxdur. Hazırda Azərbaycan və Serbiya arasında ticarət dövriyyəsi 135 milyon ABŞ dollarına çatıb. Bu Avropa ölkəsi respublikamızın iqtisadiyyatının şaxələndirilməsi və rentabelliyinin təmini baxımından da xüsusi rol oynayır, bu günə kimi Serbiyadan Azərbaycanın qeyri-neft sektoruna yönəldilən investisiyalar, təxminən, 10 milyon ABŞ dolları təşkil edib. Başqa sözlə, strateji tərəfdaşlıq sayəsində Azərbaycanla Serbiya arasında yeni, mümkün olan ən yaxın əlaqələr qurulub. Bu il fevralın 15-dək ikitərəfli münasibətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən 57 sənəd imzalanıb ki, həmin sənədlər sosial həyatın bütün sahələrində münasibətlərimizin yaxşılaşdırılması üçün möhkəm zəmin rolunu oynayıb. Bu sənədlər arasında 2013-cü ildə imzalanmış Dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə və 2018-ci ildə imzalanmış Strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı xüsusi əhəmiyyət daşıyır.



## Enerji sahəsində Azərbaycan-Serbiya əməkdaşlığı çoxşaxəlidir

Strateji tərəfdaşlığa dair birgə fəaliyyət planı iki ölkə arasında yüksələn xətlə inkişaf edən münasibətlərdə və bu münasibətlərin çoxtərəfli platformaya daşınmasında özünü göstərir. Fevralın 15-də Prezident İlham Əliyevin Belqrada səfəri bu baxımdan Azərbaycan-Serbiya münasibətlərini yeni mərhələyə yüksəldəcək mühüm sənədlərin imzalanması, o cümlədən də Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının keçirilməsi ilə əlamətdar oldu. Tərəflər enerji, mədəniyyət, idman, səhiyyə, kənd təsərrüfatı, media, kommunikasiya sahələrində əməkdaşlığa dair yeni hədəfləri müəyyənləşdirdilər. Eyni zamanda Bakı-Belqrad aviareyslərinin bu ilin may ayında başlayacağı qeyd olundu ki, bu da ölkələrimiz arasında mədəni dialoqun gücləndirilməsinə, humanitar təmasların və turizmin inkişafına töhfə verəcək. O cümlədən kənd təsərrüfatı sahələrində əməkdaşlığın dərinləşdirilməsi də ikitərəfli münasibətlərin gücləndirilməsinə xidmət baxımından əsas məqsədlərdəndir.



Serbiya Prezidentinin mətbuata bəyanatında yer alan fikirlər belə deməyə əsas verir ki, bu ölkədə Azərbaycan məhsullarına xüsusi tələbat vardır. Aleksandar Vuçiçin xüsusilə Zirədə və Naxçıvanda yetişən məhsullara diqqəti çəkməsi və müvafiq tapşırıqlar verməsi yaxın gələcəkdə bu sahədə yeni imkanların açılacağından xəbər verir: "Biz iqtisadi əməkdaşlıq, kənd təsərrüfatı, eləcə də kənd təsərrüfatı məhsullarının mübadiləsi haqqında danışdıq. Azərbaycanın Zirə kəndində yetişdirilmiş pomidor və xiyarı ilk dəfə dadanda və hətta bundan öncə Azərbaycanın xüsusi bölgəsi olan Naxçıvandan da məhsulların dadına baxanda onlar mənim çox xoşuma gəldi. Mən onları çox xoşlayıram və eşitmişəm ki, digər mənbələrdən daxil olan məhsulların qiyməti ilə müqayisədə Azərbaycan xeyli endirimlə təchiz edir. Mənə maraqlıdır, xalqımıza həmin məhsulları bu qədər aşağı qiymətlə təqdim etmək mümkündürmü?! Əgər hökumətdə əyləşən şəxslər bu haqda düşünməyiblərsə, düşünsünlər".

Azərbaycanın mövcud enerji potensialı Serbiya ilə iqtisadi əməkdaşlığında mühüm perspektivlər vəd edir. Respublikamızın müəllifi olduğu Cənub Qaz Dəhlizi layihəsində yer alan Avropa ölkələrindən biri kimi Serbiya ilə sıx əməkdaşlıq 3 ildir ki, müsbət dinamika üzrə davam etməkdədir. Bolqarıstan-Serbiya İnterkonnektoru vasitəsilə 2024-cü ilin fevralından Serbiyaya qaz nəqlinə başlanılıb. Bu ildən Azərbaycan Serbiyaya qaz tədarükünü ildə 1 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Belqrad səfəri bu istiqamətdə vahid hədəflərin müəyyənləşdirilməsi və birgə fəaliyyətə, yeni layihənin icrasına dair razılaşmanın əldə olunması ilə nəticələndi. Serbiya qaz-turbin elektrik stansiyasının qurulması hər iki ölkənin enerji sahəsində əlaqələrində yeni səhifənin açılması deməkdir. Stansiyanın 2029-cu ilə qədər fəaliyyətə başlaması nəzərdə tutulur.

Belqrad görüşü həm də onu göstərdi ki, respublikalar ənənəvi enerji ilə yanaşı, müasir dövrün çağırışlarını nəzərə alaraq bərpa olunan enerjinin inkişafı sahəsində də yeni proyektlər üzərində işləməkdə maraqlıdırlar. Başqa sözlə, enerji istiqamətində Azərbaycan-Serbiya əməkdaşlıq platforması çoxşaxəlidir, geniş perspektivlərə malikdir. Fevralın 15-də Prezident İlham Əliyev Serbiya lideri Aleksandar Vuçiçlə mətbuata bəyanatında bütün bu məsələlərə toxundu, birgə fəaliyyətə dair hədəfləri açıqladı: ***"Bütövlükdə, energetika sahəsində bizim əlaqələrimiz indi çoxşaxəli formatda inkişaf edir. Bir müddət bundan əvvəl biz Serbiyaya təbii qazın ixracına başlamışıq və bu gün qərara gəldik ki, ixracın həcmini artıracağıq. İndi Serbiya ixrac ediləcək qazı da elektrik enerjisinə çevirərək, artıq təmiz elektrikin əldə edilməsinə də nail olacaq. Bu həm Serbiya bazarı üçün və gələcəkdə ixrac üçün də imkanlar yaradacaq. Bu gün Azərbaycanın energetika sahəsində ixrac potensialı 2 gigavata bərabərdir. Bu rəqəm artacaq. Çünki biz indi bir çox bərpa olunan enerji stansiyalarının tikintisi ilə məşğuluq və bu sahədə də Serbiya ilə əməkdaşlıq etməyə hazırıq".***

Ümumilikdə, Prezident İlham Əliyevin Belqrad səfərində energetika, investisiyalar, bərpa olunan enerji, turizm, kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələləri dərindən müzakirə olundu, geniş fikir mübadiləsi aparıldı. Dövlət başçıları bu istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi, konkret layihələrin təqdim olunması ilə əlaqədar tapşırıqlar verdilər. Bütün görüş və müzakirələrin məqsədi həm siyasi, həm iqtisadi, həm də energetika sahəsində əlaqələri daha da gücləndirmək, beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək, birgə sərmayə layihələrini həyata keçirmək, energetika və nəqliyyat sahələrində yeni yaranmış imkanlardan yararlanaraq daha irəliyə baxaraq çox güclü bir sinergiya yaratmaqdır. Bu tarixi görüşün məhz Serbiyanın milli bayramı – Dövlətçilik Günündə keçirilməsi isə, sözsüz ki, bu ölkənin Azərbaycan dövlətinə, onun liderinə göstərdiyi dost münasibətdən, qarşılıqlı hörmət və etibardan irəli gəlir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bu gün Sizin milli bayramınızdır, Dövlətçilik Bayramıdır. Buna baxmayaraq, Siz Azərbaycan nümayəndə heyətini qəbul edirsiniz. Biz bunu yüksək münasibətlərin təzahürü kimi qiymətləndiririk. Serbiya və Azərbaycan – iki dost ölkə daim bir-birinin yanındadır".***

**Nail ƏSGƏROV**

# Münxen Təhlükəsizlik Konfransı:

**Azərbaycan dövlətinin həyata keçirdiyi sülh, əməkdaşlıq və tərəfdaşlıq diplomatiyası onun bu çərçivədə fəaliyyət göstərən siyasi, iqtisadi platformalarla birgə fəaliyyətinə geniş imkanlar açır. Avropa, eləcə də qlobal miqyasda təhlükəsizlik məsələlərinin müzakirəyə çıxarıldığı Münxen Təhlükəsizlik Konfransı da ölkəmizin fəal tərəfdaşlıq etdiyi əhəmiyyətli beynəlxalq tədbirlərdəndir. Prezident İlham Əliyevin hər il mütəmadi olaraq bu konfransa dəvət alması respublikamızın Avropada təhlükəsizlik və faydalı əməkdaşlıq mühitinin formalaşdırılmasına verdiyi töhfələrin nəticəsidir. Sayca 62-ci dəfə keçirilən Münxen Təhlükəsizlik Konfransının son dövrlərdə Cənubi Qafqaz regionunda baş verən ictimai-siyasi proseslərin fonunda sülh və əməkdaşlıq gündəliyinin müzakirəsi, yeni perspektivlərin dəyərləndirilməsi üçün önəmli rol oynadığını əminliklə söyləyə bilərik...**



**Dövlət başçımız konfrans çərçivəsində Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet, Bolqarıstan Prezidenti İliyana Yotova, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas, Ukrayna Prezidenti Volodimir Zelenski, Slovakiya Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak, İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani və digərləri ilə səmərəli görüşlər keçirdi, "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə iştirak etdi. Dialoqlar zamanı Azərbaycanın Avropada sülh, təhlükəsizlik və əməkdaşlığa dair mövqeyi bir daha ortaya qoyuldu, müxtəlif sahələrə dair qarşılıqlı maraqdoğuran məsələlər müzakirə edildi.**

# Azərbaycanın Avropada təhlükəsizlik və əməkdaşlıq missiyasının mühüm tribunası



**Prezident İlham Əliyev 62-ci Münxen konfransında sülhü əldə etmiş lider kimi iştirak etdi**

1963-cü ildən bəri hər il bir dəfə keçirilən, şüarı "Dialoq vasitəsilə sülh" olan Münxen Təhlükəsizlik Konfransı ötən dövrdə kifayət qədər nüfuz və etimad qazanıb. Fevralın 13-15-də keçirilən 62-ci konfransda 60 dövlət və hökumət başçısı, 120 ölkədən 200-dən çox nazir, BMT, NATO, Avropa İttifaqı kimi mötəbər beynəlxalq qurumlardan 40-dan çox rəsmi şəxs iştirak edib. Dünya mediasının xüsusi diqqət mərkəzində olan builki konfransda 115 ölkədən, təxminən, 1000 jurnalist qeydiyyatdan keçib. MSC 2026 uzunmüddətli ittifaqların möhkəmliyinin və davamlılığının sual altına düşdüyü, qaydalara əsaslanan beynəlxalq nizamın zəiflədiyi, qlobal miqyasda qeyri-sabitliyin artdığı və münaqişələrin daha da kəskinləşdiyi bir dövrə təsadüf edir. Bu baxımdan, budəfəki tədbirin əhəmiyyəti olduqca böyük, müzakirə mövzuları aktualdır.

Azərbaycan artıq 8-ci dəfədir, Münxen Təhlükəsizlik Konfransında yüksək səviyyədə təmsil olundu. Bu da onu deməyə əsas verir ki, respublikamız mədəni dialoq vasitəsilə Avropa ilə Cənubi Qafqaz arasında sabitliyə və tərəfdaşlığa davamlı töhfəsini verir və bu sahədə kifayət qədər etimad qazanıb. Ölkəmiz MSC 2026-da həm də regionda sülhü əldə etmiş, əməkdaşlığa körpü salan fəal aktor kimi iştirak etdi və hər zaman olduğu kimi, dünyaya sülh, faydalı dialoq və əməkdaşlıq mesajları ötürdü. Prezident İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibəsində konfransın ölkəmiz üçün əhəmiyyətini şərh etdi, mesajlarının əməkdaşlıq, sülh və tərəfdaşlıq olduğunu vurğuladı: ***"Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada, yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır – əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt – yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir".***

## Azərbaycandan Avropaya töhfə: mühüm enerji layihələri, nəqliyyat-logistika potensialı

Azərbaycanın irəli sürdüyü təşəbbüslərin müasir çağırışlara əsaslanması və dünya nizamının formalaşdırılması proseslərinə töhfə verməsi onun mütəmadi şəkildə Münxen Təhlükəsizlik Konfransında iştirakını şərtləndirən əsas faktordur. Bundan başqa, son 5 il və 6 ayda regionda yaranan yeni reallıqlar fonunda Prezident İlham Əliyevin necə müdrik siyasət yürütdüyü və güclü diplomatik məharət, siyasi iradə ortaya qoyduğunu göstərir. Məhz bu baxımdan Avropa ölkələri Münxen konfransı vasitəsilə sülhə və təhlükəsizliyə dair məsələlərdə respublikamızın mövqeyini öyrənməkdə, başqa sözlə, Azərbaycan nümunəsindən faydalanmaqda maraqlıdırlar. Digər tərəfdən, ölkəmizin qoca qitə üçün kifayət qədər böyük potensiala malik tərəfdaş olması da onun bu təhlükəsizlik platformasındakı yeri və rolunun vacibliyini göstərir. Bu nöqteyi-nəzərdən Avropanın təşəbbüsü ilə 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində




Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması olduqca mütərəqqi addımdır. Bu sayədə respublikamızın müəllifi olduğu Cənub Qaz Dəhlizinin imkanları daha da artırıldı və həmin dəhliz hazırda Avropanın təhlükəsizlik arteriyasıdır desək, yeridir. Təsadüfi deyildir ki, ilbəil bu layihəyə maraq daha da çoxalır, yeni interkonnektorlar vasitəsilə mavi yanacaq nəqli artır. Müqayisə üçün qeyd etmək yerinə düşər ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, indi bu miqdar 13 milyarda çatdırılıb və daha da artırılacağı nəzərdə tutulur. Hazırda respublikamız 16 ölkəyə təbii qaz nəql edir ki, həmin ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır.

Azərbaycan Avropa üçün həm də mühüm nəqliyyat bağlantısı yaradan əvəzolunmaz tranzit ölkədir. Orta Dəhlizin Asiya ilə Avropa əlaqələndiricisi kimi respublikamız qitələr arasında mühüm ticarət körpüsü rolunu oynayır. Orta Dəhlizlə yükdaşımaların həcminin son 5 ildə 7 dəfə artması da ölkəmizin bu sahədəki fəaliyyətinin nəticəsidir. 2027-ci ilə qədər bu marşrutun ötürücülük qabiliyyətinin illik 10 milyon tona çatacağı ehtimal olunur. Bu isə Azərbaycanın tranzit potensialının daha da güclənəcəyini və Avropa üçün önəminin daha da artacağını deməyə əsas verir. Xüsusilə ötən il avqustun 8-də Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmalara əsasən yaxın gələcəkdə reallaşacaq Zəngəzur dəhlizinin imkanları həm Orta Dəhlizin rəqabətqabiliyyətliliyinin artırılmasına, o cümlədən də Asiya kimi Avropa üçün də önəmli ticarət, nəqliyyat əlaqələrinə, faydalı əməkdaşlığa yeni impuls verəcək.

Bütün geosiyasi, geoiqtisadi prosesləri analiz etdikcə aydın olur ki, Azərbaycan Avropa üçün təhlükəsiz yaşayışın və faydalı əməkdaşlığın təmin olunması nöqteyi-nəzərindən mühüm tərəfdaşdır. İstər enerji, istər nəqliyyat, ticarət, istərsə də humanitar baxımdan tərəflər arasında güclü əməkdaşlıq perspektivləri mövcuddur. Bütün bu məsələlərin və hazırkı dönəmdə baş verən digər proseslərin müzakirəsi, gələcək birgə fəaliyyətin müəyyənləşdirilməsi baxımından Münxen Təhlükəsizlik Konfransının rolu mühümdür. Respublikamızın konfransda iştirak edən bütün ölkələrə, beynəlxalq təşkilatlara yeni tərəfdaşlıq üçün həm əlverişli iqtisadi, ticari mühit, həm də təşəbbüslər baxımından təqdim etdiyi üstünlüklər kifayət qədərdir. Prezident İlham Əliyevin Münxendə Azərbaycan telekanallarına müsahibəsində dediyi kimi: ***"Bizim çox üstünlüklərimiz var: coğrafiya, həm Qərbdə, həm də Şərqdə qonşularla sıx əlaqələr, elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadrlar və bir çox digər üstünlüklər. Buna görə də bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir".***

**"Şərq qapısı"**




# Sülh Şurasının ilk iclası

## Azərbaycanın qlobal sülh çağırışları fonunda artan rolu

Azərbaycanın Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar və bu xüsusda həyata keçirdiyi sülh diplomatiyası, sülhsevər missiya beynəlxalq səviyyədə öz təsdiqini tapararaq nüfuzunu artırmaqda davam edir. Yaxın Şərq Sülh Sammiti, Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi siyasi, iqtisadi, humanitar platformalarda yüksək səviyyədə təmsilçilik, Prezident İlham Əliyevin keçirdiyi ikitərəfli, çoxtərəfli görüşlər, panel müzakirələrdəki çıxışları və bütün bunların dünya mediasında geniş işıqlandırılması respublikamızın mövqeyinə olan birmənalı dəstəyin ifadəsidir. Dünya İqtisadi Forumunda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi qəbulu da məhz ölkəmizin həm regional, həm də qlobal sülhün təşviqindəki fəal rolunun təcəssümüdür. Fevralın 19-da Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasına Prezident İlham Əliyevin dəvət alması isə həm də respublikamızın dəyişən dünya nizamında, yeni sülh, təhlükəsiz arxitekturanın formalaşdırılması istiqamətindəki təşəbbüslərinə etimadın nəticəsidir.

Fevralın 19-da Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasının məqsədi ABŞ administrasiyasının Qəzzanın yenidən qurulması planı üçün vəsait toplamaq idi. Bu baxımdan, xatırlatmaq yerinə düşər ki, Sülh Şurası ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə "Sülh Şurasının Nizamnaməsi" sənədinə əsasən Davosda Dünya İqtisadi Forumu çərçivəsində təsis edilib. Və nizamnaməyə əsasən daimi üzv olmaq istəyən ölkələr 1 milyard dollar töhfə verməlidirlər. ABŞ administrasiyası sammitdə iştirak etmək üçün, təxminən, 60 ölkəyə rəsmi dəvət göndərmişdi. Tramp bu görüşlə bağlı açıqlamasında Qəzza zolağında humanitar yardım və yenidənqurma üçün 5 milyard dollar ayrılacağını bildirmişdi, ancaq təşəbbüs daha böyük oldu. İclasın sonunda Sülh Şurasının maliyyə intizamı və şəffaflığı prinsipləri haqqında qətnaməsi imzalandı, Qəzzada təmir-bərpa işləri üçün 7 milyard dollar ianə edildi.

Regionallıqdan qlobal müstəviyə çıxan mürəkkəb geosiyasi vəziyyətin nizama salınmasına xidmət edən belə bir mühüm iclasda Azərbaycan liderinin iştirakı, təbii ki, onun qazandığı siyasi nüfuzdan və güclü təşəbbüskar mövqeyindən, ümumbəşəri xarakter daşıyan sülhsevər missiyasından irəli gəlir. Eyni zamanda ölkəmizin xarici siyasətindəki çoxvektorlu, balanslı yanaşma da təmsilçilikdə mühüm amildir. Bu xüsusda respublikamızın zaman-zaman Türkiyə-İsrail, Rusiya-Ukrayna münasibətlərində barışdırıcı aktor kimi çıxış etməsi, xüsusilə də Ukraynaya, Suriyaya humanitar yardımlar ayırması, Əfqanıstanda ABŞ ilə birgə sülhsevər missiyanı uğurla yerinə yetirməsi də Sülh Şurasının ilk iclasında Azərbaycanın iştirakı baxımından önəmli nüanslardır.

Prezident İlham Əliyevin ən böyük sülhsevər missiyası, sözsüz ki, məhz 30 il davam edən Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli sülhlə bitməsində özünü göstərdi. 2020-ci il sentyabrın 27-dən etibarən 44 gün davam edən müharibədə ədalətli zəfər qazanan ölkə başçımız 5 il sonra – ötən il avqustun 8-də Vaşinqtonda sülh masası arxasından diplomatik zəfərlə qalxdı. Vaşinqton görüşündən cəmi 6 ay sonra – bu il fevralın 10-da isə Azərbaycan-ABŞ Strateji Tərəfdaşlığının əsası qoyuldu. Ötən müddətdə Azərbaycan-Ermənistan münasibətlərindəki buzların yavaş-yavaş əriməsi, qarşı tərəfin atəşkəsi pozması həm də respublikamızın regional əməkdaşlığı dəstəkləyən təşəbbüslərlə çıxış etməsi, o cümlədən də Ermənistana neft məhsullarının ixracına başlanması ilə əlaqədardır. Bu xüsusda bir fakta diqqəti çəkmək yerinə düşər ki, 2025-ci ildə Azərbaycan Ermənistana 788,8 min Amerika Birləşmiş Ştatları dolları dəyərində məhsul ixrac edib. Ermənistandan Azərbaycana heç bir məhsulun ixrac edilməməsi isə ticarət dövriyyəsində, münasibətlərin normallaşması prosesində Azərbaycanın daha təşəbbüskar mövqedə dayandığını göstərir. Məhz bütün sadaladıqlarımız bu reallıqların, təşəbbüslərin müəllifi kimi bu gün Prezident İlham Əliyev Vaşinqtonda dünya üçün mühüm məsələnin həlli məqsədilə dəvət olunmuş qlobal sülh və regional təhlükəsizliyə töhfə verəcək sayılıb-seçilən liderdir. Fevralın 19-da Sülh Şurasının ilk iclası çərçivəsində "SÜLH" sözünün yazıldığı fon qarşısında Prezident İlham Əliyevlə Baş nazir Nikol Paşinyanın bir-birinin əlini sıxması isə regiondakı sülhün dayanıqlığının daha bir rəmzi göstəricisinə çevrildi. İclasda çıxışı zamanı Donald Trampın məhz Azərbaycan və Ermənistan arasındakı sülhü nümunə kimi qeyd etməsi, Prezident İlham Əliyevə qarşı dostluq jestləri regionun gələcəyi üçün mühüm nikbin perspektivlər vəd edir: *"Bilirsiniz, müharibə edəndə onun xərcləri sülhün dəyərindən 100 qat artıq olur. Orada sonda əyləşən cənabı (Prezident İlham Əliyevi - red.) görürük. O gülümsəyir. Otuz il mübarizədən sonra bu, aydın oldu, elə deyilmi? Otuz il müharibə gedib və biz onun öhdəsindən gəldik. Sizə çox minnətdaram, əla iş gördünüz".*

Bəli, Azərbaycanın 30 illik münaqişə dönəmi belə deməyə əsas verir ki, dünyada beynəlxalq hüquq işləmir. Aparıcı təşkilatların, o cümlədən də BMT-nin qəbul etdiyi qətnamələr, sadəcə, kağız üzərində qalır, onun icrası üçün qurumun heç bir effektiv təzyiq, təsir mexanizmi yoxdur. Belə olan halda, dünyada "super güc" kimi böyük nüfuza malik bir dövlətin rəhbərinin mühüm qlobal missiyanı üzərinə götürməsi, bu məqsədlə Sülh Şurasını təsis etməsi olduqca vacib amildir. Fevralın 19-da keçirilən Sülh Şurasının ilk iclasında səslənən fikirlər, xüsusilə də Trampın "Sülh Şurası təkcə Qəzzayla deyil, həm də dünyanın digər qaynar nöqtələri ilə də maraqlanacaq" deməsi təsisatın daha da böyüyəcəyinə, dünya nizamının düzgün formalaşması istiqamətində əhəmiyyətinin yaxın gələcəkdə daha da artacağına əminlik yaradır. Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan telekanallarına müsahibəsində Donald Trampın dünyadakı sülhsevər missiyası və Sülh Şurasının fəaliyyəti barədə dediyi kimi: ***"Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın – Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş gördü. Əlbəttə ki, hər şey gündəlikdən asılı olacaq. Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı "kim güclüdür, o da haqlıdır" anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir".***

**"Şərq qapısı"**



# Naxçıvanın səması həmişə açıq-aydın olur




### Burada insan vaxtın hakimidir, vaxt insanın yox

Qədim diyarın hava qapısı – Naxçıvan Beynəlxalq Hava Limanına enən təyyarədən Vətənin bu kiçik torpağının boynuna boyunbağı kimi sarılan xan Araza, ətrafında qalxan kimi sıralanan uca dağlara, o dağların başındakı ağ örpəyə baxanda bu şəhəri nağıla bənzədirəm. Sirli-sehrli bir əfsanə var bu diyarın hər küncündə. Yola düşürəm, gedəcəyim ünvana tələsirəm, sakit yolların təmizliyi çəkir diqqətimi, yolboyu sıralanıb oyanmaq üçün yazın gəlişini gözləyən ağaclar dəyir gözümə. Və sonra vaxtilə bax elə bu yolun kənarında dayanıb Ulu Öndərin gəlişini gözləyən insanlar, soyuqdan donmamaq üçün kəsilən ağacların sıralanmış kötükləri gəlir ağlıma. Ümid dolu baxışları ilə Heydər Əliyevə baxan naxçıvanlıları xatırlayıram. Dözümlü idi buranın insanları deyirəm öz-özümə, həm də inamlı. Birinci Tanrıya, sonra onun xalqa bəxş etdiyi dahiyə inandı naxçıvanlılar. Fikrimdən taksi sürücüsünün səsi oyadır məni: “Müəllim, uzaqdan gəlirsiniz, elə bil, ilk dəfədir, Naxçıvanda olursunuz? Soyuq olmasına baxmayın, bura sabit, sakit yerdir, insanlarımız da istiqanlı, qonaqpərvərdir, yaxında Zəngəzurdan keçib gələcəksiniz Naxçıvana, çox qalmayıb”, – deyir.

Ömrünün çoxunu Vətənə xidmətə həsr etmiş bir zabitin dilindən eşitmişdim bu cümlələri. Son illərdə dinindən, dilindən, cəmiyyətdə tutduğu mövqedən və fəaliyyətindən asılı olmayaraq, Naxçıvana gələn insanların birmənalı olaraq işlətdiyi ifadələrdən bir neçəsi, bəlkə də, ən çox qəlbimə yatan oldu bu fikirlər. Bəli, Naxçıvan çox təmiz, sakit və gözəl şəhərdir. Vaxtilə həsəd apardığımız şəhərlərdən bu gün heç də geri qalmayan Şərqin günəşi, qədim Naxçıvan təmiz, səliqəli bağları, küçələri, meydanları ilə buraya gələn hər kəsi heyran qoyur. Bu qədim diyar o qədər gözəl, təmizdir ki, insan bu mədəniyyəti, güllü-çiçəkli bağçaları, yeni tikililəri tərif etməyə söz tapa bilmir.

### Reallıq budur ki...

Bu gün burada ictimai-siyasi sabitlik hökm sürür, sosial-iqtisadi inkişaf günbəgün sürətlənir. Bunun əsas səbəbi isə qaydalara, qanunlara əməl olunmasıdır ki, bu da inkişafın, yüksəlişin, uğurların başlıca səbəbi və aparıcı qüvvəsi hesab olunur. Nizam-intizam yüksək tələbkarlığın, prinsipiallığın, yorulmaz fəaliyyətin, əqidə bütövlüyünün, dərin sədaqətin və nəhayət, vətənpərvərliyin tamamlayıcı amili kimi daim diqqəti cəlb edir, rəğbət yaradır. Nizam-intizamın olmadığı diyarlarda, ölkələrdə xaos, anarxiya, özbaşınalıq kimi arzuolunmaz dağıdıcı meyillər yaranır, faciələrə yol açan hadisələr baş verir. Yəni nizam-intizam inkişafla yanaşı, həm də davamlı sabitliyin, əmin-amanlığın açarıdır. Məlumdur ki, sabitliyin olmadığı yerdə nailiyyətlərdən söhbət belə gedə bilməz.

Blokada vəziyyətində olsa da, inkişaf etmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən sərhədində alınmaz qalaya çevrilmiş Naxçıvan Muxtar Respublikası da məhz güclü dövlət qayğısının nəticəsində bu səviyyəyə yüksəlib. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə görülmüş işlər, həyata keçirilmiş tədbirlər nəticəsində Naxçıvanın beşminillik şəhər tarixində ilk dəfədir ki, onun, hətta ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alıb, abadlaşıb, gözəl yaşayış məskəninə çevrilib. Muxtar respublikanın bütün şəhərlərində inşa edilən və ya əsaslı təmir olunan binalar da yurdumuzun hüsnünə gözəllik qatır.

Bu gün qədim Naxçıvana üz tutanlar yeni bir şəhər – müasir Naxçıvan görür. Müasir Naxçıvan isə yenitipli Avrasiya şəhəri kimi diqqətləri üzərinə cəlb edir. Eyni gözəllikləri Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində – Şərurda, Babəkdə, Culfada, Ordubadda, Şahbuzda, Kəngərli və Sədərəkdə də görürük. Bu isə regionda şəhərsalmada və memarlıqda aparılan uğurlu dövlət siyasətinin nəticəsi, ciddi nizam-intizamdan bəhrələnən inkişaf və yeniləşmə istiqamətində keçilmiş şərəfli yolun nümunəsidir.

### Vətən sevgisi olan yerdə...

Diqqət yetirsək, bir daha görərik ki, müstəqilliyimizin ilk illərində Ulu Öndərin rəhbərliyi ilə məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə, muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılıb, nizam-intizamın tam bərpa olunması üçün ardıcıl tədbirlər həyata keçirilib. Bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olub, şəhər və rayonlarımızda canlanma yaranıb, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni təsərrüfat subyektlərinin fəaliyyəti sayəsində əhalinin məşğulluğu təmin olunub.

Muxtar respublikanın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərdə belə nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi sosial-iqtisadi və mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaradıb. Bütün bunlar daim nizam-intizama riayət edən insanların gərgin əməyi nəticəsində mümkün olub. Nəticədə, muxtar respublikamız müstəqillik illərində əsrlərə bərabər inkişaf dövrü keçib. Həm də inkişaf və yeniləşmə istiqamətində keçilmiş yolun dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə yeni-yeni uğurlara yol açır. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: ***“Bizim qarşımızda üfüqlər açıqdır. Necə ki Naxçıvanın səması həmişə açıq-aydın olur”.***

Yeni üfüqləri, yeni uğurları isə elə ölkə başçısı öz siyasəti ilə yaradır. O Naxçıvanı, özünün də dediyi kimi, Heydər Əliyevin Vətənini onun qədər sevir və anası Azərbaycandan ayrı düşən bu kiçik torpağı hər addımda qoruyub mühafizə edir. Tarixin ən böyük zəfəri olan Qarabağ zəfərindən də Naxçıvana pay biçir. Bütün yolları Naxçıvanda birləşdirmək üçün çalışır. Biz naxçıvanlılar çox yaxşı dərk edirik ki, bu, Ulu Öndər Heydər Əliyevin yoludur. Bu yol isə müqəddəsdir. Çünki böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz lider bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Qədim diyarımızda da məhz bu yol davam etdirilir. O yol ki bizim inkişafımızda, tərəqqimizdə, müasir dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsində daim mayak rolunu oynayır. Və bu mayak bundan sonra Böyük İpək Yoluna işıq salacaq. Dünyanın o tayından bu tayına gedən yollar Naxçıvandan keçəcək.

**“Şərq qapısı”**



# Xalqa xidmət amalı



## Prezident İLHAM ƏLİYEV:

**“Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.”**

*Ölkəmiz müstəqillik qazandıqdan sonra həyata keçirilən islahatlar, mühüm təşəbbüslər dövlətçiliyin dayaqlarının möhkəmləndirilməsinə xidmət edib. Bir ölkənin müstəqilliyinin taleyi də məhz dövlətin idarəçilik sistemindən çox asılıdır. Bu baxımdan, 26 sentyabr 2016-cı ildə Prezident İlham Əliyevin təşəbbüsü əsasında Konstitusiya islahatları ilə bağlı keçirilən referendumun nəticələrinə görə, ölkədə yaradılan Birinci vitse-prezidentlik institutu da dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addımlardandır. 2017-ci il 21 fevral tarixdə dövlət başçısının imzaladığı Sərəncama əsasən ölkəmizin ictimai-siyasi, mədəni həyatında öz sözünü demiş, daima xalqının yanında olan Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu. Bu gün Mehriban xanım Əliyevanın müasir Azərbaycan tarixinin mühüm hadisəsi olan bu təsisata rəhbərliyinin doqquz ili tamam olur. Peşəkar idarəetmə bacarığı, humanizm, ədalət, milli irsə bağlılıq kimi dəyərlərə daim sadiq olan Mehriban xanım Əliyevanın rəhbərliyi ilə adıçəkilən institut yarandığı gündən etibarən funksional siyasi təsisat kimi uğurla fəaliyyət göstərir. Fəaliyyəti müddətində Birinci vitse-prezidentlik institutu idarəetmənin səmərəlilik və çevikliyinin artırılmasında mühüm rola malik olub.*

### Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır

Mehriban xanım Əliyeva yeni təyinatadək ona həvalə olunan bütün vəzifələrin öhdəsindən layiqincə gələrək gözlənilən etimadı doğrultmuş, yüksək təşkilatçılıq qabiliyyəti ilə fərqlənmişdi. Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən “Eurovision” beynəlxalq mahnı müsabiqəsi, Formula 1, Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın böyük uğurla ev sahibliyi etdiyi mötəbər tədbirlərdir. Mehriban xanım Əliyevanın Milli Məclisin bir neçə çağırış deputatı kimi səmərəli fəaliyyətini də yaxşı xatırlayırıq. Mehriban xanım Əliyevanın dövlət xadimi və ictimai xadim kimi təhsil, səhiyyə, mədəniyyət və idman sahələrinin inkişafında, milli-mənəvi dəyərlərin, mədəni irsin qorunmasında, ölkəmizin dünyada müsbət imicinin möhkəmlənməsində xidmətləri danılmazdır.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini isə xüsusilə qeyd etmək lazımdır. Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən fond ötən 22 il ərzində Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsində, zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması da, bilavasitə, fondun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. Mehriban xanım Əliyevanın nəcib əməl və humanist prinsipləri əsasında fəaliyyət göstərən fond ölkənin yaradıcı və elmi potensialının artırılmasına, uşaq müəssisələrinin infrastrukturunun inkişafına, ekoloji tədqiqatların dəstəklənməsinə, sağlam həyat tərzinin təbliğinə, elmi və mədəni konfransların, sərgilərin təşkilinə, dini tolerantlığın möhkəmlənməsinə, vətəndaş cəmiyyəti quruculuğuna və qloballaşan dünyada milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xüsusi diqqət yetirir.



### Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır

Dövlətinə, Vətəninə sıx tellərlə bağlı olan, Azərbaycan qadınının illərlə formalaşmış mərdlik, dəyanət, sədaqət kimi ülvi obrazını şərəflə fəaliyyətində təcəssüm etdirən Mehriban xanım Əliyevanın mədəniyyətlərarası dialoqun gücləndirilməsində, sivilizasiyalararası körpülərin qurulmasında xidmətləri danılmazdır. Birinci xanımın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan “Heydər Əliyev” ordeni, eləcə də “Qızıl ürək” beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın “Şərəf Legionu” ordeni, İtaliyanın “Xidmətlərinə görə” Böyük Xaç Kavaleri ordeni, Polşanın “Böyük Komandor Xaçı” ordeni, Rusiyanın “Dostluq” ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban xanım Əliyevanın özünün də qeyd etdiyi kimi ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır: *“İllər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız – Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır”*.

### Gələcəyə qayğı

Böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını daim diqqətdə saxlayan Mehriban xanım uşaqların da sevimlisidir. Gələcəyimiz olan uşaqlara həssaslıqla yanaşan birinci xanımın təşəbbüsü olan “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək”, “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. Onun təşəbbüsü ilə reallaşdırılan “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat naminə”, “Tibb müəssisələrinin yenidən qurulması və inşası” kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları rəğbətlə qarşılanır.

Ölkədə idman hərəkatının davamlılığının təmin edilməsində Mehriban xanım Əliyevanın müstəsna xidmətləri sırasında gimnastika üzrə qazanılan uğurları xüsusilə qeyd etmək lazımdır. Bu günlərdə Azərbaycan Gimnastika Federasiyasının hesabat-seçki xarakterli 16-cı ümumi yığıncağında Mehriban xanım Əliyeva növbəti beş il müddətinə yenidən AGF-nin prezidenti (İcra Komitəsinin sədri) seçilib.

### Azad və abad torpaq naminə

Birinci vitse-prezidentin dövlətçilik naminə gördüyü işlərin, həyata keçirdiyi layihələrin miqyası genişdir. Mehriban xanım Əliyevanın təəssübkeşliyi, Vətənə, xalqa bağlılığı, daim qurub-yaratmaq həvəsi Qarabağ torpağının çiçəklənməsində də özünü göstərir. *“Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam”*, – deyən Mehriban xanım Əliyeva Prezident İlham Əliyevlə birgə Qarabağ və Şərqi Zəngəzura səfər edir, sakinlərlə görüşür, onların sevincinə şərik olur, qayğıları ilə maraqlanır və “Böyük Qayıdış” proqramına öz əməli fəaliyyəti ilə layiqli töhfələr verir.

Vəfa, sədaqət, ucalıq, xeyirxahlıq, qayğıkeşlik mücəssəməsi olan Mehriban xanım Əliyeva Azərbaycan qadınının əsl simasını dünyaya nümayiş etdirir, fəaliyyətini əzm və inamla davam etdirir. Xalqının sağlam və xoşbəxt gələcəyi naminə çalışan Birinci vitse-prezident Mehriban xanım Əliyeva gənc və gələcək nəsillər üçün vətənpərvərliyin və insanseverliyin ən ali nümunəsidir.

**Ruhiyyə RƏSULOVA**





# Vətən sevgisi və fəal vətəndaşlıq mövqeyi

### Eyni yol, oxşar ictimai tale

Tarix öz səhifələrinə ər oğulları ilə bərabər, qəhrəman, döyüşçü və diplomat qadınlarının da adını fərəhlə yazıb. Azərbaycan qadınları öz cəngavər ərlərinin, qardaşlarının, atalarının yanında, arxasında hər zaman var olublar və bu missiya bu gün də davam edir. Türk hökmdarı Tomrisin, Ağqoyunlu dövlətinin diplomat qadını Sara xatunun, Atabəyin sadiq dostu, yoldaşı dövlət işlərində ən birinci sirdaşı Möminə xatunun, Şah İsmayılla birgə döyüşən Aləmşahbəyimin və neçə-neçə diplomat, döyüşçü Azərbaycan qadınının adını bu gün də fəxrlə çəkir və müasir dövrümüzdəki belə qadınlarla fəxr edirik. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da həm mərhəməti, həm siyasi ağlı, həm də vətənsevərliyi ilə adını Azərbaycan xalqının şərəf tarixinə yazanlardandır. Tanrının seçilmiş bəndələrindən, onu dünyaya gətirən qadından, anası Aida İmanquliyevadan insanlığı, mərhəməti öyrənib, akademik Zərifə xanım Əliyevanın cəmiyyət, elmi-ictimai dərslərindən örnək alıb, bu gün onun insani nəciblik və mərhəmət ənənələrini davam etdirir. Necə deyərlər: “Gəlin ocağa gələr”. Eyni yol, oxşar ictimai tale və bu yolda irəliləyən əməllər...

### Prezidentin sirdaşı, qazilərin bacısı,qayğıkeş və nümunəvi insan

Aprel döyüşlərindən başlayaraq onu hərbi formada Ali Baş Komandanın yanında döyüş bölgəsində görəndə məğrur duruşu ilə fəxr etdik, evi düşmən mərmisinin zərbəsi ilə dağılan, yaxınlarını itirən insanların yanında gözyaşı tökərkən, sağlamlığını itirmiş qaziyə qardaşım deyib qayğı göstərərkən, işğaldan azad edilmiş məscidə ayaqyalın girərkən izlədik. Qolunu itirmiş qazinin əli, gözünün nurunu Vətənə qurban verən zabitin gözünə nur oldu Mehriban xanım Əliyevanın qayğısı. Gözü yaşlı şəhid anasının yanında dayanıb onun göz yaşını silib, şəhid balasını qucaqlayıb bağrına basdı. Düşmən gülləsinə tuş gəlib yarı canını Vətənə qurban edən oğulları xəstə yatağında ziyarət edib, onlara güc verdi. Bacı oldu, ana oldu sağlamlığını Vətənə fəda edənlərə. 44 günlük Vətən savaşında xalqın yuxusu ərşə çəkiləndə, igid oğullar gecə-gündüz haqq savaşı verəndə o da Ali Baş Komandanla bərabər yuxusuz gecələr keçirib ona dayaq oldu. Qələbəyə sevinib, torpaq üçün canından keçən oğullara qürur gözyaşı tökdü. İşğaldan azad edilmiş ərazilərə hərbi formada qədəm qoyub şəhid oğulların ruhunu şad etdi. Ordumuzun qəhrəman oğullarına dəstək olub onları qələbəyə ruhlandırdı. Azərbaycan qadınının əsalətini, dönməzliyini, qəhrəmanlığını sübut etdi. Bəli, o həm sadiq həyat yoldaşı, Prezidentin sirdaşı, nəcib əməllər davamçısıdır, həm də məğrur duruşlu qadınların davamçısı.

### Vətəni öz evi kimi görür

Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə informasiya kommunikasiyaları və ətraf mühitin mühafizəsi sahələrində ölkə üçün pilot layihələr işləyib hazırlayır, səhiyyə, elm, mədəniyyət və təhsil sahələrində həyata keçirdiyi layihələri ilə dövlət siyasətinə dəstək göstərir. Birinci xanımın Bakıda birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi misilsiz fəallığı və nüfuzu dünya səviyyəli, genişmiqyaslı bu idman hadisəsinin təşkilində böyük rol oynayıb. Bu, Avropa ideyasına güclü təkan və yeni Avrasiya meyarı verdi. Azərbaycanın müasir baxışlara malik birinci xanımı Mehriban Əliyeva öz fəaliyyəti ilə ölkə qadınlarına nümunə göstərir, onları cəmiyyətdə fəal olmağa ruhlandırır. Onun işi təkcə paytaxtda bitmir. İşğaldan azad edilən ərazilərdə tarixi abidələrin yenidən həyata qaytarılması işi ilə də yaxından maraqlanan birinci xanım Qarabağın dirçəldilməsinə də öz töhfəsini verir. Birinci xanım bu işlə bitib-tükənməyən enerjisi, Vətən sevgisi, vicdanlı Azərbaycan qadını, güclü və əqidəli bir insan kimi məşğul olur. Onun simasında gözəllik ilə xeyirxahlıq birləşərək vəhdətə çevrilir və hər addımını sosial reallığı dəyişən yaradıcılığa döndərir.

### Bizim Mehriban xanım...

Bu gün azərbaycanlılar ölkənin birinci xanımını sevirlər. Çünki biz onun simasında istəklərimizlə maraqlanan, səmimi, hər bir ciddi problemə münasibət bildirməyi bacaran insan görürük. Azərbaycan Prezidentinin xanımı ölkə daxilindəki səfərlərdə daim onu müşayiət edir. Onunla bərabər insanların qayğısına qalır. Biz hiss edirik ki, xeyirxahlıq və şəfqət onun daxilindən gəlir. Biz onu həm də Azərbaycan ədəbiyyatında, ictimai həyatında rolu olan gözəl bir ailənin qızı, Azərbaycanı yox olmaqdan xilas edən bir dahinin gəlini, Vətəni bütövləşdirən Müzəffər Ali Baş Komandanın həyat yoldaşı, evimizin, elimizin qızı kimi də qəbul edir və sevirik. Mehriban xanım Əliyevanın adı, şübhəsiz ki, bundan sonra da müasir dünyanın nüfuzlu qadınları sırasında olacaq. Çünki birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Avropada İslam-xristian dialoqunda böyük rol oynamağa başlayıb. Vatikanın tarixində ilk dəfədir ki, müqəddəs xristian abidələrinin bərpasına müsəlman ölkəsində fəaliyyət göstərən bir təşkilat kömək edir. Azərbaycanda fondun təşəbbüsü ilə katolik və pravoslav kilsələri, sinaqoqlar təmir edilir. Dünyanın bir çox yerində xeyirxah missiya yerinə yetirən birinci xanım öz əməlləri ilə bu xalqın necə tolerant bir xalq olduğunu da dünyaya nümayiş etdirir. O, dövlət başçısı ilə birlikdə səfər etdiyi ölkələrdə xalqı layiqincə təmsil edir, yeri gələndə savadı, dərin bilikləri, xanımlığı ilə, yeri gələndə isə diplomatik nəzakətlə, sakit formada, sərrast cavablarıyla dövləti təmsil edərək qədimdən qalan “Aslanın erkəyi, dişisi olmaz” deyimini yada salır. Bu gün biz cəsarətlə deyirik ki, birinci xanımın adı Azərbaycanın tarixində daim yaşayacaq.

**Ramiyə ƏKBƏROVA**



# Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib



Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyinə iki məsələnin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsinin layihəsi Ali Məclisin müzakirəsinə çıxarılması üçün Hüquq siyasəti komitəsinə göndərilib. Layihə komitədə müzakirə olunub, komitənin rəyi ilə Ali Məclisin müzakirəsinə tövsiyə edilib.



Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci ildə muxtar respublikada insan hüquqlarının qorunması haqqında fəaliyyətinə dair məruzə edib.

Məruzə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev komitənin rəyini diqqətə çatdırıb.

Məsələ ətrafında müzakirələrdə deputatlardan Bəhruz Məmmədov, Əziz Qasımov, Vüsal Məmmədzadə, Mahir İsmayılov və Şəhla Əhmədova çıxış ediblər. Çıxışlarda Ombudsman institutunun sosial təminat, təhsil, sağlamlığın qorunması ilə bağlı hüquqların təmin edilməsi, ictimai iştirakçılıq, hüquqi maarifləndirmə və digər sahələrdə gördüyü işlər təqdirəlayiq hesab edilib.

Məsələnin müzakirəsi zamanı deputatlardan Azad Novruzov, Ramiz Məmmədov və Üzeyir Məmmədov tərəfindən mövzu ilə bağlı bir sıra suallar səsləndirilib.

Ombudsman Günay Rzayeva səsləndirilən suallara münasibət bildirib.

Ardınca Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.



İclasda gündəlikdə duran ikinci məsələ ilə bağlı Bəxtiyar Məmmədov qeyd edib ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması məqsədi ilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb, deputatlara təqdim edilib. Layihə Hüquq siyasəti komitəsinin iclasında müzakirə olunub.

Layihə barədə komitə sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Bununla da Ali Məclisin yaz sessiyasının növbəti iclası başa çatıb.

# Ali Məclisin Hüquq siyasəti komitəsinin iclasları keçirilib



Fevralın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev bildirib ki, iclasın gündəliyinə “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsinin müzakirəsi daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi Ali Məclisə daxil olub və müzakirə üçün komitəyə göndərilib.

İclasda Ombudsman Aparatının İnsan hüquqlarının müdafiəsi və hüquqi-maarifləndirmə şöbəsinin müdiri Vahidə Bayramova layihə barədə məlumat verib.

Gündəlikdə duran məsələ ilə bağlı müzakirələr aparıldıqdan sonra “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsinin Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunması tövsiyə edilib.

***

Fevralın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev bildirib ki, iclasın gündəliyinə “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri qeyd edib ki, qanun layihəsinə əsasən “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa təklif edilən dəyişikliklə həm Ali Məclis deputatlarının fəaliyyətinin təkmilləşdirilməsi, həm də qanunun müvafiq Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması hədəflənir.



İclasda layihə haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Rahib Kərimov məlumat verib.

Gündəlikdə duran məsələ ilə bağlı müzakirələr aparıldıqdan sonra “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

# Ali Məclis deputatlarının 2025-ci il ərzində ictimai-siyasi fəaliyyəti ilə bağlı məlumat

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları tərəfindən 2025-ci il ərzində vətəndaşlarla 470 görüş keçirilib, ümumilikdə, 1926 vətəndaş müraciəti qəbul olunub. Müraciətlərin həlli istiqamətində işlər aparılıb, deputatlar tərəfindən aid qurumlara 135 məktub ünvanlanıb.

Ali Məclisin deputatları ötən il media ilə aktiv əməkdaşlıq ediblər. Belə ki, deputatların müxtəlif qəzet və informasiya saytlarında, ümumilikdə, 448 məqaləsi dərc olunub. Həmçinin onlar 181 televiziya və radio verilişlərində qonaq olub, ölkəmizdə baş verən mühüm hadisələr, əlamətdar günlər, habelə müxtəlif sosial-iqtisadi və siyasi məsələlərlə bağlı fikirlərini bölüşüblər.

Deputatlar bu müddət ərzində Naxçıvan Muxtar Respublikasında, ölkəmizin digər şəhər və rayonlarında, həmçinin xarici ölkələrdə keçirilən 822 ictimai-siyasi, iqtisadi, mədəni və elmi tədbirlərin iştirakçısı olublar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci ilə dair məruzəsinin Xülasəsi

2025-ci il ölkəmizin tarixində xüsusi əhəmiyyət kəsb edən dövr kimi yadda qalmışdır. Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilmişdir. Bu isə dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə, konstitusion dəyərlərin daha dərindən dərk edilməsinə və insan hüquqlarının təmininin yeni mərhələyə yüksəlməsinə xidmət edir.

“Konstitusiya və Suverenlik İli” münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarının layihəsi Milli Məclisə təqdim edilmiş, müstəqillik dövrünün ən böyük amnistiya aktı qəbul olunaraq, insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqlik bir daha nümayiş etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında da 2025-ci il ərzində amnistiya aktının icrası çərçivəsində müvafiq dövlət qurumları tərəfindən kompleks və əlaqələndirilmiş tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada təhqiqat və istintaq orqanları, məhkəmələr, icra məmurları, hərbi hissə komandanlıqları və cəzaçəkmə müəssisələri tərəfindən, ümumilikdə, 254 nəfər şəxsə amnistiya tətbiq edilmişdir.

İnkişaf prosesində insan hüquq və azadlıqlarının qorunmasının davamlı və sistemli şəkildə təmin olunması mühüm institusional mexanizmlərin mövcudluğunu zəruri edir. Bu baxımdan, Ombudsman institutu muxtar respublikada insan hüquqlarının müdafiəsində, vətəndaş-dövlət münasibətlərində hüquqi tarazlığın qorunmasında əsas rol oynayır. Bir sözlə, Ombudsman insan hüquqlarının müdafiəsi sahəsində milli prioritetlərin regional səviyyədə effektiv icrasına xidmət edir.

Ombudsman 2025-ci ildə də öz fəaliyyətini konstitusiyanın aliliyinə, qanunun hökmranlığına və insan hüquqlarının etibarlı müdafiəsinə əsaslanaraq həyata keçirmişdir. Ombudsmanın icraatında 2025-ci il ərzində 241 müraciət olmuşdur (Müraciətlərin 190-nı şikayətlər, 51-ni isə ərizələr təşkil etmişdir).

Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş, həmçinin Aparatda şəxslərin qəbulu, “Konstitusiya və Suverenlik İli” çərçivəsində Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerlərinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, təhsil və tibb müəssisələrinə həyata keçirilmiş başçəkmələr və monitorinqlər zamanı təqdim edilmişdir.

Hesabat dövründə Ombudsman tərəfindən keçirilən kollektiv və fərdi qəbullarda, açıq görüşlərdə, başçəkmə və monitorinqlərdə, aksiya və digər tədbirlərdə iştirak edən, ümumilikdə, 9634 şəxs dövlət və vətəndaş münasibətində Ombudsmanın aktiv dəstəyini hiss etmişdir.

Hesabat ilində Ombudsmana dövlət qurumlarının fəaliyyəti ilə əlaqədar daxil olmuş şikayətlər üzrə statistik göstəricilər təhlil edilmişdir. Bəzi müraciətlərdə iki və daha artıq şikayət olunan subyektin olması nəzərə alınmaqla, müvafiq mərkəzi icra hakimiyyəti orqanları və onların tabeliyindəki qurumlardan 144, məhkəmə hakimiyyəti orqanlarından 6, yerli icra hakimiyyəti orqanlarından 22, bələdiyyələrdən 7, vəzifəli şəxslərdən 10, digər subyektlərdən isə 7 şikayət daxil olmuşdur.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni 30,3 faizini hüquq və azadlıqların inzibati və məhkəmə təminatı təşkil etmişdir. Müraciətlərin 20,3 faizi əmək, 19,5 faizi sosial təminat, 5,4 faizi isə mülkiyyət hüququnun təmini və müdafiəsi ilə bağlı olmuşdur. Digər müraciətlər isə vətəndaşlıq, təhsil, azadlıq, müraciət etmək, informasiya əldə etmək, özbaşınalıqdan müdafiə və vicdanlı davranış, azad sahibkarlıq, şərəf və ləyaqətin müdafiəsi, sağlamlığın qorunması, hüquqi yardım almaq, təhlükəsiz yaşamaq və digər hüquqlarla əlaqədidir.

Qanunun tələblərinə müvafiq olaraq Ombudsman tərəfindən 46 müraciətə baxılmaqdan imtina edilmişdir (onlardan 6 müraciət aidiyyəti üzrə göndərilmişdir). 195 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, 66 müraciətdə (59 tam, 7 qismən) hüquq pozuntusu aradan qaldırılaraq ərizəçilərin hüquqları bərpa edilmiş, 60 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 20 müraciət üzrə hüquqi məsləhətlər verilmiş, 9 müraciət nəzarətdə saxlanılmış, 40 müraciətin icraatı davam etdiyindən növbəti ilə qalıq qalmışdır (onlardan 31-i dekabr ayında daxil olmuşdur).

ardı 9-cu səhifədə

Qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılarkən vəzifəli şəxslərin yazılı arayışları tələb olunmuş, yerində araşdırmalar aparılaraq nəticələri sənədləşdirilmiş, həmçinin hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə aidiyyəti dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələri və mütəxəssislər dəvət edilərək zəruri tədbirlər görülmüş, ekspert rəyləri alınmışdır.

Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri bir sıra problemlərin operativ həllində və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır. Nəticədə, baxılmış müraciətlərin 46 faizi üzrə pozuntu halları aradan qaldırılaraq ərizəçilərin pozulmuş hüquqları bərpa olunmuşdur.

Muxtar respublikanın aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması və yazılı cavab verilməməsi barədə şikayətçilər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər üzrə vətəndaşların hüquqlarını pozan dövlət orqanlarına zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tələblər ünvanlanmış, hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

İnsan hüquq və azadlıqlarının təmini vəziyyətini daim diqqətdə saxlayaraq monitorinqini aparan Ombudsman 2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarına insan hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi, o cümlədən əhalinin həssas qruplarının problemlərinin operativ şəkildə həll olunması məqsədilə təklif və tövsiyələrlə müraciət etmişdir.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına 1 şikayət daxil olmuş və araşdırılmış, bu sahədə təşkil edilən tədbirlərdə 185 nəfər iştirak etmişdir.

Məlum olduğu kimi, 2025-ci il Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin keçirilməsi ilə əlamətdar olmuşdur. Seçkilərin keçirilməsi ərəfəsində seçki hüququ ilə bağlı müxtəlif mövzularda silsilə maarifləndirmə tədbirləri təşkil olunmuş, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinə riayət olunması məsələləri dəyərləndirilmişdir.

Bələdiyyə seçkiləri günü Ombudsman və təsisatın əməkdaşları Naxçıvan şəhəri və rayonlarda 6 seçki dairəsi üzrə 97 seçki məntəqəsində, o cümlədən hərbi hissələrdə və penitensiar müəssisələrdə müstəqil olaraq öz təşəbbüsləri ilə müşahidələr aparmışlar.

Müşahidələr zamanı Ombudsman həm məntəqə seçki komissiyalarının üzvləri, həm də müşahidəçi və seçicilərlə bilavasitə görüşmüş, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrənmiş, pozuntu halları və seçkilərə müdaxilə hallarına müşahidə edilməmişdir.

Monitorinqlər göstərmişdir ki, əlilliyi olan, yaşlı və müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin seçki hüququnun həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərindən irəli gələn şərait yaradılmışdır.

"İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə" Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi məqsədilə Ombudsman və onun Preventiv qrupu (PQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin müəssisələrinə 33, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 15, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 4, Səhiyyə Nazirliyinin müəssisəsinə 4, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisəsinə 2 və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tabeliyində olan Naxçıvan Şəhər Müvəqqəti Yerləşdirmə Mərkəzinə 2 başçəkmə olmaqla, 60 başçəkmə həyata keçirilmişdir. Bunlardan 15-i plandankənar olmuşdur.

Başçəkmələr zamanı saxlanılan şəxslər təkbətək və konfidensial qaydada qəbul edilmiş, onların hüquqlarının təmini vəziyyəti, o cümlədən müəssisələrdə saxlanma şəraiti, rəftar, tibbi xidmət, görüş, telefon danışığı və bu kimi digər məsələlər, habelə mətbuatda və sosial şəbəkələrdə həmin şəxslər barəsində yayımlanmış məlumatlar araşdırılmış, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində Ombudsmanın tövsiyələrinin icra vəziyyəti yoxlanılmışdır.

Başçəkmələr həyata keçirilərkən hüquq pozuntusu faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə texniki vasitələrdən istifadə edilməklə foto, audio və video qeydiyyatları aparılmış, başçəkmələrin gedişi və nəticələri protokollaşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Başçəkmələr zamanı 970 şəxslə ümumi, 41 şəxslə təkbətək və konfidensial görüş keçirilmişdir.

Başçəkmələrdə Ombudsmanın icraatına 13 müraciət daxil olmuş, müraciət edənlərdən 4 şəxsin pozulmuş hüquqları bərpa edilmiş, 1 müraciətə baxılmasından imtina edilərək aidiyyəti üzrə göndərilmiş, 3 müraciət üzrə hüquqi məsləhət verilmiş, 2 müraciət nəzarətdə saxlanılmış, 3 müraciətdə hüquq pozuntusu aşkar edilməmişdir.

Başçəkmələr zamanı saxlanılan şəxslərin ləyaqətinin qorunması, yaşayış sahəsi, qida və gigiyena məsələlərinə, işçi heyətin onlarla humanist və müsbət rəftar etmə öhdəliyinə əməl etmə məsələlərinə xüsusi diqqət yetirilmiş, saxlanılan şəxslərin saxlanılması üçün bütün mümkün sahələrdən istifadə, gigiyena və sanitariya qurğuları, onların sağlamlığının qorunması və açıq havada olmaq imkanı monitorinq olunmuşdur.

Hesabat dövründə muxtar respublikada əhalinin müxtəlif sosial qruplarının – qadınların, uşaqların, miqrantların, ahıl şəxslərin, müharibə veteranlarının, şəhid ailələrinin və məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, hüquq bərabərliyinin davamlı təmin edilməsi, hüquq və azadlıqlarının müdafiəsi, onların pozulmuş hüquqlarının bərpası Ombudsmanın əsas vəzifələrindən olmuşdur.

Ombudsmanın ünvanına şəhid ailələrindən, müharibə veteranlarından və müharibə ilə bağlı əlilliyi olan şəxslərdən daxil olmuş müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, müvafiq araşdırmalar aparılmış, bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birgə problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması məqsədilə Ombudsmanın müstəqil monitorinq mexanizm funksiyalarının icrası istiqamətində Ombudsman və onun Monitorinq qrupları tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrdə 63, Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrdə 8, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrdə 4, Əlahiddə Ümumqoşun Ordunun tabeliyində olan müəssisədə 1, Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 12 monitorinq olmaqla, ümumilikdə, sosial xidmət, təhsil və tibb müəssisələrində 88 monitorinq həyata keçirilmişdir. Bunlardan 6-sı plandankənar olmuşdur.

Monitorinqlər zamanı müəssisələrdə hüquqların təmini vəziyyəti yoxlanılmış, bu məsələlərə diqqətin artırılması və qanunvericiliyin tələblərinə daha ciddi əməl olunması məqsədilə maarifləndirmə işi həyata keçirilmiş və yuxarı dövlət orqanlarına təklif və tövsiyələr verilmişdir.

Həbs yerlərində saxlanılan və məhkum edilmiş şəxslərin hüquqlarının təmin edilməsi sahəsində Ombudsman tərəfindən aparılan təhlil və ümumiləşdirmələr göstərir ki, 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 11 məhkum, nazirliyin yerli icra və probasiya qurumlarında 37 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 7 məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilərək cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmiş, 1 məhkumun cəzasının çəkilməsi təxirə salınmışdır. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 may tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı ilə 1 məhkum barəsində əfvetmə tətbiq olunmuşdur.

Ümumilikdə, 2025-ci il ərzində barələrində humanist cəza siyasəti tətbiq edilən 311 şəxs cəzadan, cəzanın çəkilməmiş hissəsindən azad edilmiş və ya cəzası azaldılmışdır.

2025-ci il ərzində, ümumilikdə, 173 cəza çəkməkdən azad edilmiş şəxs barəsində sosial adaptasiya tədbirləri tətbiq edilmişdir ki, bunlardan 136 şəxsə minimum aylıq əməkhaqqının dörd misli miqdarında birdəfəlik pul müavinəti verilmiş, 6 şəxs işlə təmin olunmuş, 22 şəxs özünüməşğulluq proqramı üzrə qeydiyyata alınmış, 9 şəxslə "Fərdi sosial iş" proqramı çərçivəsində sosial müdafiə tədbirləri həyata keçirilmişdir.

Həyata keçirilən tədbirlərin davamı kimi Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 871 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmiş və həmin sənəddə gender bərabərliyinin təmin edilməsi üzrə hüquqi və institusional mexanizmlərin təkmilləşdirilməsi, qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması, sosial cəhətdən həssas qrupdan olan qadınların dəstəklənməsi, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi, habelə cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin formalaşdırılması və əhalinin məlumatlılıq səviyyəsinin yüksəldilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir.

2025-ci il ərzində Ombudsmanın icraatına daxil olan 241 müraciətin 82-si (55 şikayət, 27 ərizə olmaqla), yəni 34,02%-i sosial kateqoriyasına görə qadınlar tərəfindən edilmişdir.

Əhalinin həssas qruplarından olan qadınların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə məhkəmə qərarlarının icra olunmaması, əmək hüququnun pozulması, təhsil, məşğulluq, pensiya, əlilliyin təyin edilməsi, tibbi müayinə və müalicə məsələləri, məişət zorakılığı və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Hesabat dövründə insan hüquqlarının ayrı-ayrı istiqamətləri üzrə, eləcə də müxtəlif sosial qruplara ünvanlanmış plan üzrə 72, plandankənar 26 olmaqla, 98 maarifləndirici tədbir keçirilmişdir. Ümumilikdə, 69 müəssisəni əhatə edən tədbirlərdə 3700 nəfər iştirak etmişdir.

Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquqi, elmi-analitik, informasiya və metodiki məsələlər üzrə öz fəaliyyətini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əlaqələndirmişdir. Bu çərçivədə Ombudsman və aparatın əməkdaşları beynəlxalq səviyyəli 1 tədbirdə iştirak etmişdir.

Hesabat dövründə Qərbi Azərbaycana qayıdışla bağlı hüquqi maarifləndirmə və ictimai məlumatlandırma tədbirlərinə xüsusi önəm verilmiş, bu istiqamətdə həyata keçirilən fəaliyyətlər sistemli və məqsədyönlü xarakter daşımışdır. Belə ki,"Qərbi azərbaycanlıların hüquqlarının pozulması və onlara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti" mövzusunda maarifləndirici videoçarx hazırlanmış, Naxçıvan Dövlət Universiteti ilə birgə "Qərbi Azərbaycana qayıdışın hüquqi və konstitusional əsasları: milli və beynəlxalq normalar kontekstində" mövzusunda konfrans təşkil edilmişdir.

Hesabat ilində Ombudsman təsisatı tərəfindən "Ombudsmandan uşaqlara: hüquqlarınız sizi qoruyur, vəzifələriniz sizi böyüdür!" adlı buklet və "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında 2022-2024-cü illərə dair Tematik Materiallar" adlı vəsait hazırlanaraq aidiyyəti qurumlara və kitabxanalara paylanılmışdır.

Ombudsmanın fəaliyyəti yerli və ölkə mediası tərəfindən geniş şəkildə işıqlandırılmış, il ərzində televiziya və radio kanallarına 23 müsahibə verilmişdir. Ümumilikdə, Ombudsmanın fəaliyyəti ilə bağlı yerli və ölkə mediasında 121, sosial media hesablarında isə 1142 informasiya materialı olmaqla, ümumilikdə, 1263 informasiya materialı yayımlanmışdır.

Ombudsmana ünvanlanmış müraciətlərin təhlili və ümumiləşdirilməsi, aparılmış başçəkmə və monitorinqlərin nəticələrinə əsasən insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları təklif edir:

- Rayonlarda məşğulluq imkanlarının artırılması üçün yerli əmək bazarına uyğun aktiv məşğulluq proqramlarının genişləndirilməsini;
- Gənclərin məşğulluq və sosial hüquqlarının təmin edilməsi məqsədilə onlara yönəlmiş proqramların genişləndirilməsini;
- Vakansiyalar barədə vətəndaşların əvvəlcədən məlumatlandırılması mexanizmlərinin gücləndirilməsini;
- Kənd yerlərində suvarma suyunun ədalətli bölgüsü məqsədilə bərabərliyin və şəffaflığın təmin edilməsini, ayrı-seçkiliyin aradan qaldırılmasını və infrastrukturun yenilənməsini;
- İçməli su təminatında yaranan uzunmüddətli fasilələr zamanı alternativ təminat imkanlarının yaradılmasını;
- Tibb müəssisələrində kadr təminatının gücləndirilməsini, maddi-texniki bazanın yenilənməsini, bütün ərazilərdə tibbi xidmətə əlçatanlığın təmin edilməsini, bərabər imkanların yaradılmasını;
- Sağlamlığın qorunması hüququnun effektiv təmin olunması məqsədilə psixiatriya yardımının göstərilməsi sahəsində şəraitin yaxşılaşdırılmasını, avadanlıq və resurs təminatının gücləndirilməsini, müasir standartlara uyğun psixonevroloji sosial xidmət müəssisəsinin yaradılmasını;
- Y.Budaqov adına Psixi Xəstəliklər Dispanserində xəstəliklərin ağırlıq dərəcəsi və növü nəzərə alınmaqla pasiyentlərin eyni şəraitdə stasionar müalicə olunmalarının qarşısının alınmasını, Dispanserin binasının əsaslı təmir və yenidənqurulmasını;
- Pasiyentlərin psixi vəziyyətinin müayinəsini, psixi pozuntusunun diaqnostikasını, müalicəsini və profilaktikasını, psixo-sosial reabilitasiyasını özündə birləşdirən ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi məqsədilə kadr potensialının gücləndirilməsini və peşəkarlığın artırılmasını;
- Əlilliyi olan şəxslər üçün xidmət infrastrukturunun standartlara uyğunlaşdırılmasını, yeni infrastruktur layihələrinin planlaşdırılması zamanı əlilliyi olan şəxslərin ehtiyaclarının və fiziki imkanlarının nəzərə alınmasını;
- Əlilliyin müəyyən olunması ilə bağlı həkim-məsləhət komissiyalarının göndərişləri ilə tibbi-sosial ekspert komissiyalarının rəyləri arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə "Tibbi-Sosial Ekspert Komissiyasına göndərişlərin reyestri"nə daxil edilməli olan məlumatlara dair tələblərin dəqiq müəyyən edilməsini;
- Tibbi-sosial ekspertiza prosesində qərarların əsaslandırılmasının hüquqi mexanizmlərlə möhkəmləndirilməsini;
- Uşaqların təhsil hüququnun tam və bərabər şəkildə təmin edilməsi məqsədilə real ehtiyacların qiymətləndirilməsini, yeni internat tipli təhsil müəssisələrinin yaradılmasını;
- Ümumtəhsil müəssisələrində psixoloq ştatlarının artırılmasını və psixoloji yardımın keyfiyyətinin yüksəldilməsini;
- Məktəbəqədər təhsil müəssisələrində psixoloq ştatlarının yaradılmasını və psixoloji işin təşkilini;
- Təhsil müəssisələrində təmir-bərpa işlərinin aparılmasını, təhlükəsizlik standartlarına uyğunlaşdırılmasını;
- Məktəblərdə və digər təlim-tədris müəssisələrində insan hüquqları mövzusunun tədris edilməsini və bu sahədə maarifləndirmə proqramlarının keçirilməsini;
- Məişət zorakılığına qarşı effektiv müdafiə mexanizmlərinin tətbiqinin genişləndirilməsini;
- Məişət zorakılığı və digər təhlükələrə məruz qalmış qadınların müdafiəsi məqsədilə sığınacaq və reabilitasiya xidmətlərinin yaradılmasını, hüquqi-psixoloji dəstəyə əlçatanlığın təmin edilməsini;
- Məhkəmə qərarlarının, xüsusilə uşaq hüquqlarına təminat verən məhkəmə qərarlarının icrası zamanı borclu şəxsin axtarışı prosesinin gecikdirilmədən icra edilməsini;
- Müvəqqəti saxlama yerlərində, istintaq təcridxanasında, cəzaçəkmə müəssisələrində təmir-bərpa işlərinin genişləndirilməsini və infrastrukturun müasirləşdirilməsini;
- Məhkumların maddi ehtiyaclarının, habelə aliment və başqa borclarının ödənilməsi və ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində yeni istehsal sahələrinin yaradılmasını;
- Penitensiar müəssisələrdə məhkumlara mütəmadi olaraq psixoloji yardımın göstərilməsi məqsədilə məhkumlarla işləmək bacarığına malik peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;
- Videozənglərin təşkil edilməsinin məhkumun ailəsi və yaxınları ilə əlaqələrini möhkəmləndirməklə islah prosesinə müsbət təsirini, görüş üçün sərf ediləcək nəqliyyat xərclərinə (xüsusilə uzaqda yaşayanlar üçün) qənaəti nəzərə alaraq məhkumların videogörüş keçirmək hüququnun təmin olunması üçün zəruri addımların atılmasını;
- Məhkumların sosial adaptasiyası və cəmiyyətə inteqrasiyası üçün hazırlıq imkanlarının genişləndirilməsini.

Ombudsmanın fəaliyyətinə etimad göstərərək müraciət edən bütün şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının qorunması naminə konstruktiv əməkdaşlıq edən dövlət qurumlarına və vətəndaş cəmiyyəti nümayəndələrinə təşəkkürümü bildirir, birgə səylərimizin hüquqların müdafiəsinin güclənməsinə töhfə verəcəyinə inanıram.

# Rəqəmsal transformasiya: yeni dövrün strateji hədəfləri

İnformasiya və texnologiya əsri kimi xarakterizə olunan dövrümüzdə dünyada baş verən sürətli rəqəmsal transformasiya dövlətlərin sosial-iqtisadi inkişaf modellərini yenidən formalaşdırır. Bu prosesdən kənarda qalmamaq üçün ölkələr rəqəmsal iqtisadiyyatın qurulmasını strateji prioritetə çevirirlər. Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə dövlət başçısının dediyi kimi: ***"Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir".***

Rəqəmsallaşma təkcə texnoloji yenilik deyil, həm də idarəetmə fəlsəfəsinin, iqtisadi münasibətlərin və ictimai xidmətlərin transformasiyasıdır. Bu baxımdan, Azərbaycan rəqəmsal inkişafı milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi müəyyən edib. Bu həm də ona görə vacibdir ki, iqtisadiyyatımızın neft-qaz sektorundan asılı olmaması üçün iqtisadi şaxələndirmə vacib məsələ kimi gündəmə gəlir. Rəqəmsal iqtisadiyyat bu baxımdan da yeni imkanlar yaradır. İnformasiya-kommunikasiya texnologiyaları, elektron ticarət, fintex həllər, startap ekosistemi və innovativ sahibkarlıq qeyri-neft sektorunun inkişafına mühüm töhfə verir. Rəqəmsal platformalar biznes proseslərini optimallaşdırır, xərcləri azaldır və məhsuldarlığı artırır. Kiçik və orta sahibkarlıq subyektləri üçün rəqəmsal alətlər bazara çıxışı asanlaşdırır və beynəlxalq ticarət imkanlarını genişləndirir. Bu isə ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasını gücləndirir.

Rəqəmsal inkişafın əsas şərtlərindən biri güclü infrastrukturun mövcudluğudur. Son illərdə Azərbaycanda genişzolaqlı internet şəbəkəsinin genişləndirilməsi, fiber-optik xətlərin çəkilməsi və mobil rabitə imkanlarının artırılması istiqamətində mühüm addımlar atılmışdır. Bu həm şəhər, həm də region əhalisinin rəqəmsal xidmətlərdən istifadəsini asanlaşdırır. Bulud texnologiyaları, məlumat mərkəzləri və rəqəmsal platformalar iqtisadi fəaliyyətin daha çevik və təhlükəsiz təşkilinə imkan verir. Bununla yanaşı, kibertəhlükəsizlik, kadr və digər məsələlərin həlli də diqqət mərkəzindədir. Dövlət başçısının vurğuladığı kimi: ***"Rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir".***

Naxçıvan Muxtar Respublikasında da iqtisadi və sosial inkişafın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinin hərəkətverici qüvvəsi həm də rəqəmsallaşma və müasir texnologiyaların bütün sahələrə tətbiqidir. Azərbaycanın ümumi rəqəmsal ekosisteminə inteqrasiya muxtar respublikanın idarəetmə modelini təkmilləşdirir, regionun investisiya cəlbediciliyini artırır. Rəqəmsal transformasiya sahəsindəki əsas hədəf təkcə texnologiyaların tətbiqi deyil, ilk növbədə, vətəndaş məmnunluğunu təmin etmək, tam şəffaflığa nail olmaqdır. Bu mənada, yeni rəqəmsal arxitektura bütün dövlət xidmətlərinin vahid platformada birləşməsini tələb edir. Bu yanaşma çərçivəsində Naxçıvanda dövlət qurumlarının məlumat bazalarının mərkəzi sistemlərə inteqrasiyası sürətlənib. Bu, muxtar respublikada yaşayan vətəndaşların Bakıda və ya ölkənin digər şəhərlərində təqdim olunan rəqəmsal xidmətlərdən eyni keyfiyyətdə yararlanmasına hərtərəfli şərait yaradır.

Muxtar respublikada informasiya texnologiyaları və rəqəmsal xidmətlərin genişləndirilməsi bir çox sahələrdə yeni imkanlar yaradır. Bununla da elektron dövlət xidmətlərinin əlçatanlığı artırılır, internet infrastrukturu modernləşdirilir və genişzolaqlı internetin bölgənin bütün hissələrinə yayılması təmin edilir, kadrların rəqəmsal bacarıqlarının artırılması üçün təhsil və təlimlərə xüsusi diqqət yetirilir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş rəqəmsal infrastrukturun genişləndirilməsi, yüksəksürətli internetə çıxışın təmin edilməsi və əhalinin rabitə xidmətlərinə əlçatanlığının artırılması üzrə tədbirlərin icrası istiqamətində görülən işlər də yeni-yeni uğurlara yol açır. Muxtar respublikada poçt və telekommunikasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi, infrastrukturun modernləşdirilməsi və xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılan "Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti qeyd olunan məsələlərin həyata keçirilməsində aparıcı institusional platforma rolunu oynayacaqdır.

Ümumilikdə, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin icrası, müəyyənləşdirilən prioritetlərin fəaliyyətin əsas istiqamətinə çevrilməsi ölkəmizin, həmçinin Naxçıvanın rəqəmsal inkişafını sürətləndirəcək, texnoloji infrastrukturu daha da gücləndirəcək, məlumat təhlükəsizliyi və süni intellekt sahəsində beynəlxalq standartlara uyğunlaşma prosesinə əsaslı töhfə verəcəkdir.

**Rauf ƏLİYEV**
***Jurnalist***

# Azərbaycanın rəqəmsal təhlükəsizliyində çağırışlar və prioritetlər

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

*"Süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır. Bu gün bu sahədə aparıcı ölkələrdə bu belədir. Hətta mənə verilən məlumata görə, bu sahədə inkişaf etmiş bəzi ölkələrdə dövlət məmurlarının gündəlik fəaliyyətinə də süni intellekt agentləri, – belə adlandırılır, – kömək göstərir. Çünki burada hər hansı bir qərarın düzgün olub-olmaması ilə bağlı süni intellekt təbii ki, yardımçı ola bilər. Ona görə bu sistemə də baxmaq lazımdır və rəhbər orqanlarında təmsil olunan şəxslər süni intellektdən geniş istifadə etməlidirlər".*



Qlobal rəqəmsal mühitin dinamik inkişafı dövlət idarəçiliyində çevikliyi, müasir texnologiyaların geniş tətbiqini və informasiya təhlükəsizliyinin gücləndirilməsini zəruri edir. Artıq süni intellektin vacibliyi cəmiyyətin gələcək təhlükəsizliyi, rifahı və rəqabət qabiliyyəti baxımından strateji məsələyə çevrilib. Ölkə başçısı İlham Əliyev "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə bu məsələyə toxunaraq bildirib: ***"Hesab edirəm ki, hər bir dövlət qurumunda, ilk növbədə, nazirliklərdə rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavin ayrılsın. Yeni ştat vahidi yaradılsın, ya da bu sahə mövcud müavinlərin birinə tapşırılsın ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları, rəhbərliyi bilsinlər ki, onların təmasda olacaqları şəxslər kimdir və hər bir dövlət qurumunda bu sahə prioritet sayılmalıdır".***

Prezidentin bu çağırışı idarəetmədə istiqamətlərin vahid yanaşma ilə peşəkar və məsul strukturlar tərəfindən idarə olunmasının vacibliyini ortaya qoyur. Prezidentin vurğuladığı istiqamətlərdən biri də milli təhlükəsizliyin əsas komponentlərindən sayılan kibertəhlükəsizliyin gücləndirilməsidir. Kiberhücumlara qarşı dayanıqlığın artırılması, informasiya sistemlərinin davamlılığı kimi məsələlər daha ciddi əhəmiyyət kəsb edir. Eyni zamanda dövlət qurumlarında kadr potensialının gücləndirilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanması üçün də geniş imkanlar yaradılacaq.

Mediada süni intellekt informasiyanın daha dəqiq təsnifatı, saxta xəbərlərin aşkarlanması və istifadəçi davranışının təhlili baxımından mühüm rol oynayır. Süni intellektin təklif etdiyi alqoritmlər redaksiyalara həm operativlik gətirir, həm də informasiyanın keyfiyyətini qorumağa xidmət edir. Bu amil xüsusən dezinformasiyanın sürətlə yayıldığı dövrdə həyati əhəmiyyət daşıyır. Süni intellektin tərəqqisi yeni peşələrin yaranmasına təsir göstərir. Data analitiki, kibertəhlükəsizlik mütəxəssisi, robototexnika mühəndisi kimi sahələr artıq əmək bazarında aktuallaşıb. Bu isə gənclər üçün yeni imkanlar deməkdir. Ona görə də süni intellektin vacibliyinin dərk edilməsi, onun düzgün və etik idarə olunması gələcəyin uğur strategiyasının əsasını təşkil edir.

Bu gün bəşəriyyət süni intellektin verdiyi imkanların işığında irəliləyir. Lakin texnologiyanın parlaq üzü ilə yanaşı, kölgədə qalan təhlükələr də var. Bu təhlükələr elə səssiz addımlarla irəliləyir ki, bəzən onları hiss etdikdə artıq gec olur. Süni intellekt bir xəbər yaradır, minlərlə insan oxuyur, minlərlə insan inanır. Həqiqət yalanın içində itib gedir. Son  zamanlar Süni intellekt ilə hazırlanan "saxta xəbər istehsalı" ilə tez-tez üzləşirik. Yüksək həssaslıqla hazırlanmış "deepfake" videolar insan nitqini, mimikasını və görüntüsünü reala çox yaxın şəkildə təqlid edə bilir. Bu texnologiyanın təhlükəsi ondadır ki, cəmiyyətdə çaşqınlıq yarada, ictimai rəyə təsir göstərə və dövlətin ali mövqelərinə qarşı etimadsızlıq formalaşdıra bilər. Sosial şəbəkələrdə süni intellekt vasitəsilə hazırlanmış saxta kontentlərin sürətlə yayılması informasiya təhlükəsizliyini hədəfə alır. Hamının danışdığı "deepfake" dalğası həm cəmiyyət üzərində psixoloji təsir yaratmağa, həm də dövlət institutlarına inamı sarsıtmağa yönəlmiş dezinformasiya kampaniyasının tərkib hissəsidir. Azərbaycan dövləti də bu prosesdən kənarda deyil. Ən təhlükəli cəhət isə budur ki, bu hücumlar anonim adlar üzərindən edilmir. Dövlətin tanınmış simalarının adından aparılır.

Müasir informasiya müharibəsində saxta video və audio materiallar artıq "silah" kimi istifadə olunur, süni intellekt isə bu sahədə əsas vasitəyə çevrilir. Azərbaycan regionda aparıcı mövqeyə sahibdir və son illərdə həm siyasi, həm hərbi, həm də diplomatik gücünü göstərib. Bu reallıq bəzi qüvvələrin narahatlığına səbəb olur. Nəticədə, ölkəmizə qarşı informasiya təxribatları koordinasiyalı şəkildə aparılır. Bu zaman cəmiyyət üçün informasiya savadlılığı vacib rol oynayır. Bu gün hər kəs sosial media istifadəçisidir və istənilən video saniyələr içində milyonlara yayıla bilir. Ona görə də hər bir vətəndaşın informasiya savadlılığı mühüm rol oynayır. İnsanlar  bilməlidir ki, yayılan hər məlumat doğru deyil, hər video real deyil, hər səslənən fikir fakt deyil. Xüsusilə süni intellektin vüsət aldığı dövrdə cəmiyyət kritik düşünmə bacarığını gücləndirməli, rəsmi mənbələrə üstünlük verməli, təsdiqlənməmiş məlumatları yaymaqdan çəkinməlidir.

Azərbaycan Respublikası bu cür hücumların qarşısını almaq üçün hüquqi və texnoloji mexanizmləri daha da təkmilləşdirir. Bu baxımdan, hər bir vətəndaş, media qurumu və dövlət strukturu informasiya mühitində ayıq-sayıq olmalı, təsdiqlənməmiş məlumatlara qarşı məsuliyyətli yanaşmalıdır. Dövlət strukturlarının koordinasiyalı fəaliyyəti, media sahəsində aparılan islahatlar, habelə sosial şəbəkələrin təsir gücünü nəzərə alan yeni idarəçilik mexanizmləri dezinformasiyaya qarşı effektiv müdafiə xətti formalaşdırır. Siyasi səviyyədə qəbul olunan qərarlar, informasiya müharibəsi reallığını nəzərə alan strategiyalar milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib. Bu gün Azərbaycan ictimaiyyəti xəbər axınında daha ayıq olmaq, informasiyanı mənbə etibarlılığına görə qiymətləndirmək vərdişini sürətlə mənimsəyir. Cəmiyyətin maarifləndirilməsi, media savadlılığının artırılması istiqamətində görülən işlər də dezinformasiya ilə mübarizənin vacib komponentidir. Nəticə etibarilə, Azərbaycanın informasiya təhlükəsizliyi sahəsində atdığı addımlar, qurduğu institusional baza və göstərdiyi siyasi iradə ölkənin həm daxildə, həm də beynəlxalq arenada informasiya müharibələrinin təzyiqlərinə qarşı dayanıqlığını artırır. Bu isə milli maraqların qorunması baxımından əhəmiyyətli strateji üstünlükdür.

Eyni zamanda sosial media istifadəçiləri də bu prosesdə üzərinə düşən məsuliyyəti dərk etməlidirlər. Paylaşdığımız hər sözə, hər görüntüyə "Bu cəmiyyətə nə verir?" sualı ilə yanaşmalıyıq. Sosial şəbəkələr aqressiya, hörmətsizlik və mənəvi aşınma məkanı deyil, maarifləndirmə, sağlam fikir və milli dəyərlərin qorunduğu platforma olmalıdır. Bütün bu dəyişikliklər bir daha göstərir ki, informasiya mühiti nəzarətsiz deyil və cəmiyyətin mənəvi təhlükəsizliyinin təmin edilməsi dövlət üçün prioritet məsələlərdən biridir. Sosial şəbəkələrdə sosial məsuliyyətsizliyə deyil, sosial şüurun formalaşmasına töhfə verməliyik. Nəticə olaraq sürətlə dəyişən rəqəmsal dünyanın diktə etdiyi yeni reallıqlar qarşısında süni intellektin həm imkanları, həm də təhlükələri ilə üz-üzəyik. Bütün bunlar onu göstərir ki, süni intellekt dövründə informasiya təhlükəsizliyinin təmin edilməsi, dezinformasiyaya qarşı mübarizə və rəqəmsal mədəniyyətin inkişafı Azərbaycanın gələcək inkişafının, milli təhlükəsizliyinin və ictimai rifahının ən vacib strateji prioritetlərindəndir.

**✍ Bülbül RÖVŞƏNQIZI**

# Naxçıvan Muxtar Respublikasında sahibkarlığa dövlət dəstəyi gücləndirilir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyən edib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın dəstəklənməsinə, investisiya mühitinin yaxşılaşdırılmasına və yeni iş yerlərinin yaradılmasına yönəlib. Ölkə başçısının muxtar respublikaya göstərdiyi xüsusi diqqət və qayğı, sahibkarlıq fəaliyyətinin asanlaşdırılması və regionda iqtisadi fəallığın artırılması istiqamətində mühüm addımların atılmasına zəmin yaradır.*

Dövlət başçısının imzaladığı fərman və sərəncamlarla sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, sahibkarlıq subyektlərinin elektron qeydiyyatının aparılması, lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, "daxildə emal" xüsusi gömrük prosedurunun, vergi və gömrük sahəsində şəffaflaşmanın, fermerlərə vergi ödənişlərindən azadolmalar, subsidiyaların verilməsi, güzəştli kreditlərin ayrılması özəl sektorun inkişafında xüsusi əhəmiyyət daşıyır.

Həyata keçirilən islahatlar və dövlət-özəl sektor əməkdaşlığının güclənməsi 2025-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi göstəricilərində müsbət nəticələrə gətirib çıxarıb. Belə ki, 2025-ci ildə ümumi daxili məhsul istehsalı 2024-cü illə müqayisədə 3,8 faiz artaraq 1 milyard 709 milyon manat təşkil edib. Xüsusilə sənaye sektorunda yüksək dinamika müşahidə edilib, sənaye məhsulu istehsalı 474,2 milyon manata çatıb, 2024-cü illə müqayisədə artım tempi 7,2 faiz təşkil edib.

Muxtar respublikada sahibkarlara göstərilən dəstək çoxşaxəli mexanizmlər əsasında qurulub. Ölkə Prezidentinin 2026-cı il 6 fevral tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na edilən dəyişikliklər investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəlmiş mühüm addımdır. Yeniliklər sənaye yönümlü layihələrin həyata keçirilməsinə əlavə stimul yaradır.

1 yanvar 2026-cı il tarixdən Naxçıvan Muxtar Respublikasında tətbiq olunan vergi, gömrük və sosial sığorta güzəştləri region sahibkarları və iqtisadi inkişaf üçün mühüm təşviq mexanizmi kimi diqqət çəkir. Bu güzəştlər dövlət başçısının muxtar respublikaya göstərdiyi diqqət və qayğının bariz nümunəsi olmaqla sahibkarların fəaliyyətini asanlaşdırmaq, investisiya mühitini daha da əlverişli etmək və iqtisadi fəallığı artırmaq məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin 12 yanvar 2026-cı il tarixli Qərarına əsasən sənaye parkları və sənaye məhəllələrinin rezidentləri, eləcə də investisiya təşviqi sənədi almış sahibkarlar üçün idxal olunan xammal, material, texnika və texnoloji avadanlıqlar üzrə təsdiqedici sənəd mexanizmi təsdiqlənib.

Bu çərçivədə sahibkarlar üçün vergi yükü azaldılır, idxal olunan xammal və texnoloji avadanlıqlar üzrə gömrük ödənişlərindən azadolmalar təmin edilir, eyni zamanda sosial sığorta öhdəliklərinə dair güzəştlər tətbiq olunur. Bu, sahibkarların maliyyə resurslarını daha səmərəli idarə etməsinə, yeni layihələrin reallaşdırılmasına və mövcud müəssisələrin genişləndirilməsinə imkan yaradır.

Bütün bu tədbirlər onu göstərir ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı dövlət tərəfindən ardıcıl və məqsədyönlü şəkildə dəstəklənir. Yaradılmış əlverişli biznes mühiti, təklif olunan maliyyə alətləri və tətbiq olunan güzəştlər regionu yerli və xarici ölkə sahibkarları üçün cəlbedici investisiya məkanına çevirir və dayanıqlı iqtisadi artımın təmin olunmasına möhkəm zəmin yaradır.

## Əməkdaşlıq memorandumu imzalanıb



Naxçıvan Dövlət Universiteti ilə Memar Sinan Gözəl Sənətlər Universiteti arasında Dayanıqlı şəhərsalma və regionların planlaşdırılması ixtisası üzrə ikili diplom magistr proqramının həyata keçirilməsi barədə razılıq əldə olunub. Bununla bağlı iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memorandum NDU-nun rektoru Elbrus İsayev və Memar Sinan Gözəl Sənətlər Universitetinin rektoru Ahmet Sacit Açıkgözoğlu tərəfindən imzalanıb. Sənədə əsasən tərəflər memarlıq və incəsənət sahələrində genişmiqyaslı əməkdaşlıq edəcək, birgə layihələr və akademik təşəbbüslər həyata keçirəcəklər.

Əməkdaşlığın əsas təşəbbüslərindən biri "Memar Əcəmi – Mimar Sinan Memarlıq Parkı" layihəsidir. Layihə Azərbaycan və Türkiyə memarlıq məktəblərinin iki görkəmli nümayəndəsi – memar Əcəmi və memar Sinanın irsini vahid konseptual məkanda birləşdirməyi hədəfləyir. Bu təşəbbüs ortaq tarixi-mədəni dəyərlərin memarlıq müstəvisində ifadəsinə xidmət edəcək.

Protokola əsasən Memar Sinan Gözəl Sənətlər Universitetinin professorları NDU-ya dəvət olunacaq, memarlıq, təsviri incəsənət, şəhərsalma və fənlərarası tədqiqat istiqamətləri üzrə birgə tədbirlər təşkil ediləcək.

***

Naxçıvan Dövlət Universiteti (NDU) ilə Türkiyənin Marmara Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi NDU-nun rektoru Elbrus İsayev və Marmara Universitetinin rektoru Mehmet Emin Okur imzalayıblar.

Müqavilənin əsas məqsədi hər iki ali təhsil müəssisəsinin təhsil və elmi-tədqiqat fəaliyyətləri üzrə qarşılıqlı marağın artırılması, birgə elmi layihə və təşəbbüslərin hazırlanması istiqamətində əməkdaşlığın genişləndirilməsi, həmçinin müəllim, tələbə və inzibati heyət mübadiləsinin həyata keçirilməsidir.

Əməkdaşlığın mühüm istiqamətlərindən biri tibb, mühəndislik və iqtisadiyyat sahələrində xarici professorların Naxçıvan Dövlət Universitetinə dəvət olunmasıdır. Eyni zamanda NDU-nun Tibb fakültəsinin tələbələri Marmara Universitetində təcrübə keçmək imkanı əldə edəcəklər.

## Babək və Sədərək rayonlarında sahibkarlar üçün dəstək mexanizmləri təqdim olunub



Fevralın 18-də Babək rayonunda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və Babək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sahibkarlarla görüş keçirilib.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, tədbirdə dövlət qurumlarının nümayəndələri və rayon sahibkarları iştirak ediblər.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov rayonda ötən il əldə edilən sosial-iqtisadi inkişaf göstəriciləri, sahibkarlığın inkişafı istiqamətində görülən işlər barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev çıxış edərək sahibkarları regionun mövcud iqtisadi potensialından və dövlət tərəfindən təqdim edilən dəstək mexanizmlərindən səmərəli istifadə etməyə, yeni investisiya təşəbbüsləri ilə çıxış etməyə və fəaliyyətlərini genişləndirməyə çağırıb.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının üzvü, iş adamı Rafiq Əliyev çıxışında sahibkarlıq fəaliyyətindən bəhs edib.

***

Fevralın 19-da Sədərək rayonunda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və Sədərək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iş adamlarıyla görüş keçirilib.



Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə rayonda sahibkarlığın dəstəklənməsinin və yeni iş yerlərinin yaradılmasının diqqət mərkəzində saxlanıldığını, görülən işlərin əhalinin rifahının yüksəldilməsinə və rayonun davamlı inkişafına xidmət etdiyini bildirib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev bildirib ki, muxtar respublikanın iqtisadiyyatı müxtəlif sahələrdə uğurla inkişaf edir və bu inkişafın davamlı olması üçün sahibkarların fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Nazir 1 yanvar 2026-cı il tarixindən tətbiq olunan vergi, gömrük və sosial sığorta güzəştlərinin dövlət başçısının regiona göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu vurğulayıb.

Görüş çərçivəsində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri tərəfindən iş adamları üçün dəstək mexanizmləri, güzəştli kreditlərin verilməsi qaydaları, eləcə də yeni vergi, gömrük və sosial sığorta güzəştləri barədə təqdimatlar edilib.

Sonda təşkil olunan panel müzakirəsi zamanı sahibkarlar dövlət qurumlarının nümayəndələrinə müraciət edərək onları maraqlandıran məsələləri diqqətə çatdırıblar.

## "Naxçıvan maarifi" sənədli-bədii filminin təqdimatı olub

Heydər Əliyev Sarayında keçirilən təqdimat mərasimində əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Dövlət Himni səsləndirilib.




Təqdimatı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov qeyd edib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Azərbaycan tarixinə, elminə, ədəbiyyat və ictimai fikrinə çoxsaylı görkəmli şəxsiyyətlər bəxş etmişdir.

Bu şəxsiyyətlərin mühüm, tarixi xidmətlərinin nəticəsidir ki, bu qədim diyarda elmi, ədəbi, mədəni fikrin inkişafı bir çox dövrlərdə nümunə rolunu oynayıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov bildirib ki, regionda maarifçi hərəkatın öyrənilməsi, onun verdiyi bəhrənin üzə çıxarılması, burada xalq maarifinin və məktəbin vəziyyətinin, onun mütərəqqi əsasda inkişafına təsir göstərən amillərin üzə çıxarılması xüsusi əhəmiyyət kəsb edir.

Təqdimatda çıxış edən fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov vurğulayıb ki, bəhs olunan dövrdə Naxçıvanda maarifçi hərəkat yüksək səviyyəyə qalxmış, elm və təhsildə böyük uğurlar əldə edilmişdir.

Sonra Veysəloğlu Şirkətlər Qrupunun fəaliyyəti barədə qısa videoçarx nümayiş olunub.

Veysəloğlu Şirkətlər Qrupunun təsisçisi və rəhbəri Aydın Talıbov çıxış edərək qeyd edib ki, "Naxçıvan maarifi" filmi bizim üçün, sadəcə, bir mədəni layihə deyil, bu, Veysəloğlu Şirkətlər Qrupunun strateji baxışının, təhsilə və milli-mənəvi dəyərlərə sadiqliyinin ifadəsidir.

Bu film gənc nəslin öz köklərinə bağlı, savadlı və məsuliyyətli vətəndaş kimi formalaşmasına töhfə vermək məqsədi daşıyır.

Sonra "Naxçıvan maarifi" sənədli-bədii filmi nümayiş olunub.

## Ordubadın qədimliyi ispan qonaqları valeh etdi



Ötən günlərdə həmkarlarımızla birlikdə qədimlik və müasirliyin birləşdiyi, əsrlərin sınağından keçmiş Ordubada üz tutduq. Ünvana çatdığımızda İspaniyadan gəlmiş turistlərlə rastlaşdıq. Onların təəccüb və sevinc dolu baxışları, qədim memarlığın hər daşında gizlənən tarixə heyranlıqları diqqətimizdən yayınmadı.

Biz də fürsəti əldən verməyərək ispaniyalı turistlərin təəssüratlarını öyrəndik. Nəinki abidələr, həta şəhərin ab-havası, insanların qonaqpərvərliyi belə onların yaddaşında xüsusi yer tutmuşdu.

İspan turistlər – Héctor Lozano Sánchez və José Maria Amate Armengol fotoaparatları boyunlarında, baxışları şəhərin memarlığına köklənmiş, sanki Ordubadı illərdir, tanıyırmış kimi rahat və maraqla gəzirdilər.

Onlar dedilər: "Bu gün Ordubadın tarixi ilə tanış oluruq. Memarlıq, təbiət və insanların səmimiyyəti bizə unudulmaz təsir bağışlayır".

Ordubadda ən çox nəyi bəyəndiklərini soruşduqda isə cavabları belə oldu: "Limon və sucuq. Bu bölgəyə xas dadlar bizi heyran etdi. Limon və sucuğun tamı bizim üçün tamamilə yeni bir təcrübə idi. Hətta ailəmizə aparmaq üçün də almağı düşünürük".

Söhbət zamanı məlum oldu ki, ispan turistlər Naxçıvanda birgünlük qonaq deyillər. Üç gün qalmaq niyyətindədirlər və səfər proqramları da olduqca zəngindir.

"Tarixlə yaşayan bu bölgəni daha yaxından tanımaq istəyirik. Sabah Culfa istiqamətində yerləşən Əlincə qalasını ziyarət etməyi planlaşdırırıq. Oranın tarixini çox oxumuşuq, xüsusən də müdafiə döyüşləri bizi maraqlandırır. Bundan başqa, Qarabağlar türbəsini də görmək istəyirik", – deyə onlar əlavə etdilər.

Qonaqlar Naxçıvanla bağlı ümumi təəssüratlarını da böyük məmnuniyyətlə bölüşdülər: "Naxçıvan çox gözəldir, gələn dəfə ailəmizi də gətirəcəyik. İnsanlar isə inanılmaz dərəcədə qonaqpərvərdir. Bu bizi çox təsirləndirdi".

# Dinimizdə uca və müqəddəs qəbul edilən ay – Ramazan

Ramazan ayı İslam mədəniyyətində və dini baxımdan xüsusi yer tutan, həm fərdi, həm də ictimai həyatın formalaşmasına ciddi təsir göstərən müqəddəs aylardan biridir. Ramazan Hicri təqviminin aylarından doqquzuncusunun adıdır. Bu ay müsəlmanların oruc tutmaqla mükəlləf olduqları, dinimizcə uca və müqəddəs qəbul edilən bir aydır. 2026-cı il fevralın 19-da başlanacaq Ramazan ayı müsəlmanlar üçün yalnız ibadət dövrü deyil, eyni zamanda əxlaqi dəyərlərin möhkəmləndirilməsi, sosial həmrəyliyin gücləndirilməsi və mənəvi özünüdərkin dərinləşməsi baxımından mühüm hesab edilir.

Ramazan ayının əsas dini mahiyyəti "Qurani-Kərim"in məhz bu ayda nazil olması ilə bağlıdır. Bu fakt Ramazan ayına xüsusi dəyər qazandırır. Oruc ibadəti İslamın əsas beş şərtindən biridir. Bu ayda 29-30 gün boyunca sübh azanından məğrib azanına qədər yemək, içmək və nəfsi arzular məhdudlaşdırılır, həmçinin xeyirxahlıq, səbir və ibadət ön plana çıxır.

Oruсluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Orucun vaxt çərçivəsi, şərtləri, pozulma halları və istisnaları dini hüququn mühüm mövzularından hesab olunur. Bu baxımdan, Ramazan yalnız mənəvi deyil, həm də hüquqi-dini qaydaların yerinə yetirildiyi aydır.

Fəlsəfi aspektdən oruc insanın nəfs üzərində hakimiyyətini təmin edən etik mexanizm kimi çıxış edir. Aclıq və susuzluq vasitəsilə insan maddi asılılıqlardan müvəqqəti olaraq uzaqlaşır və öz daxili aləminə yönəlir. Bu proses insanın iradə gücünü möhkəmləndirir, məsuliyyət hissini artırır və özünüidarə bacarığını inkişaf etdirir. Etik baxımdan Ramazan insanı yalnız zahiri davranışlarına deyil, daxili niyyətlərinə də nəzarət etməyə təşviq edir ki, bu da əxlaq fəlsəfəsində niyyət-əməl vəhdəti kimi dəyərləndirilir.

Ramazan ayının mühüm funksiyalarından biri onun sosial ədalət və bərabərlik ideyalarını gücləndirməsidir. Oruc tutan insan aclıq hissi vasitəsilə cəmiyyətdə sosial cəhətdən zəif təbəqələrin vəziyyətini daha dərindən dərk edir. Bu anlayış sədəqə, fitrə və xeyriyyə fəaliyyətlərinin artmasına səbəb olur. Ramazan cəmiyyətin sosial strukturuna da təsir göstərir. İftar süfrələri ailə institutunun möhkəmlənməsinə, nəsillərarası münasibətlərin güclənməsinə və ictimai ünsiyyətin artmasına şərait yaradır. İnsanlar arasında tolerantlıq, qarşılıqlı hörmət və bağışlama meyilləri güclənir.



Ramazan ayı böyük bir fürsət və mərtəbədir. Xoşbəxt insanlar o kəslərdir ki, bu ayın ülvi dəyərlərini dərk edir, onun hədsiz-hüdudsuz bərəkətlərindən bəhrələnir, həmçinin bu ayın ibadətləri və orucu sayəsində özlərinin mənəvi və maddi problemlərini həll edirlər.

Ramazan ayı insan həyatında dərin iz buraxan, onu həm ruhən, həm də əxlaqi baxımdan yetişdirən müqəddəs bir zamandır. O, insanı səbrə, şükür etməyə, mərhəmətli olmağa və paylaşmağa çağırır. 2026-cı il Ramazan ayı da hər bir müsəlman üçün öz daxili aləmini saflaşdırmaq, Allaha yaxınlaşmaq və daha kamil bir insan olmaq yolunda qiymətli bir fürsət kimi dəyərləndirilə bilər.

✍ **Turan MƏMMƏDLİ**

# Əzəl çərşənbə, gözəl çərşənbə



Fəsillər içərisində ən sərt fəsil sayılan qışı xalq təqvimlərə bölərək bayram əhvalında keçirir. İlk Çillə mərasimini qeyd etməklə Böyük çilləni qarşılayır, daha sonra Xıdır Nəbi mərasimi ilə Kiçik çilləyə meydan oxuyurlar. Beləcə, Kiçik çillə şələ-şüləsini götürüb gedər-getməz Boz ayı 4 çərşənbəyə bölən xalq şövqlə baharı qarşılamağa hazırlaşır. Bu il Su çərşənbəsi fevralın 24-nə, Od çərşənbəsi martın 3-nə, Yel çərşənbəsi martın 10-na, Torpaq çərşənbəsi isə martın 17-nə təsadüf edir.

Əzəl çərşənbə Su çərşənbəsidir ki, insanlar suyun gücünə inanaraq əsrlərin süzgəcindən su kimi durula-durula gələn adətlər icra edirlər. Qədim inanclara görə, kainatın yaradılışı zamanı ilk su mövcud olub və həyatın mənbəyi sayılıb. Buna görə də Su çərşənbəsi təkcə baharın gəlişinin deyil, həm də yenilənmənin, saflığın və bərəkətin rəmzidir. Su çərşənbəsi ilə bağlı xalq arasında maraqlı inanclar mövcuddur. Deyirlər ki, həmin gün buzlar əriyir, çaylar coşub-daşır, baharın ilk nəfəsi duyulur. Həyat yenidən canlanır. Odur ki, insanlar obaşdan oyanır, kimisi ana-nənəsindən miras qalmış səhəngini götürüb bulaq başına, kimisi çay kənarına gedir. Sudan içir, gətirdikləri qabları su ilə doldurur, baharın ilk nəfəsini ciyərlərinə çəkir, axar suyun üzərindən atlanaraq ilin bütün ağırlıqlarını arxada qoyduqlarına inanırlar. "Ağırlığım-uğurluğum suya, Azarım-bezarım suya", – deyib, su üstündən atlanmaq, əl-üzünü sübhün soyuğuna baxmayaraq yumaq, bir-birilərinin üstünə su atmaq ənənəsi bu gün də var. Naxçıvanın, demək olar ki, bütün bölgələrində, xüsusən də Ordubadın kəndlərində dan yeri ağarar-ağarmaz su başına gedən uşaqdan tutmuş böyüyə hər kəs suyun enerjisinə inanır, arzu və niyyətlərini axar çaya pıçıldayırlar. Həmin gün su təmizlik, paklıq rəmzi kimi insanların ümid yerinə, inancına çevrilir. Gətirdikləri sudan həyətə, ağacların dibinə səpir, bərəkət gətirəcəyinə inanırlar.

Su çərşənbəsi xalq arasında "sular Novruzu", "gözəl çərşənbə" adları ilə də tanınmaqdadır. Su ilə bağlı inanclar xalq arasında bu gün də yaşadılmaqdadır: "Yuxuda su görmək aydınlıqdır", "Səfərə çıxan insanın arxasınca su atarlar", "Lal axan sudan keçməzlər", "Suyun lal axanı, adamın yerə baxanı", "Su səhəngi suda sınar", "Su bir yerdə qalanda iylənər" və digər bu kimi nümunələrdə də suyun əski türk aləmində müqəddəs bilinən anlayışlar sırasında olduğu sübut edilir.



Beləcə, buzlar əriməyə başlar, Od çərşənbəsi ilə torpaq isinər, Yel çərşənbəsi ilə axar sular çağlayar, coşar, ağaclar tumurcuq bağlayar. Baharın yaxınlaşdığını xəbər verən Novruzgülü torpaqdan baş qaldırıb insanları sevindirər. İnsanlar yenidən torpağa tapınar.

Qış ağır-ağır nəfəsini yaza təslim edər. Bahar ilk müjdəçisi su ilə dünyamıza daxil olar. Axı su həyatdır.

Çağlayıb axan sularımız qurumasın, ömrümüz su kimi təmiz, aydın olsun. Su çərşənbəniz mübarək olsun!

# Magistratura səviyyəsi üzrə muxtar respublika birincisi



Xəbər verdiyimiz kimi, magistraturaya qəbul imtahanlarının nəticələri açıqlanıb və muxtar respublika üzrə ən yüksək nəticəni Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları ixtisasının 4-cü kurs tələbəsi Aysu Qasımova əldə edib. O, 95 baldan 85 bal toplayaraq Naxçıvan üzrə birinciliyi təmin edib.

Bu uğuru böyük qürurla qarşıladığını deyən Aysu Qasımova bildirib ki, nəticə onun üçün həm motivasiya, həm də gələcək üçün təşviq mənbəyidir: "Uğura çatmaq üçün uzun müddət planlı və əzmkar şəkildə çalışmışam. Hazırda magistratura təhsilini harada davam etdirəcəyim barədə qərar verməmişəm. Qarşımda bir neçə seçim var və ən doğru qərarı vermək üçün diqqətlə düşünürəm. Əsas məqsədim təhsilimi keyfiyyətli şəkildə davam etdirmək və seçdiyim sahədə peşəkar mütəxəssis olmaqdır".

Aysu Qasımova bu uğurun əldə olunmasında ailəsinin və müəllimlərinin dəstəyinin əhəmiyyətini də qeyd edib. O bildirib ki, çətin məqamlarda ruhdan düşməyib və məqsədinə çatmaq üçün səbir, əzm göstərib. Həmçinin magistratura imtahanına hazırlaşan digər abituriyentlərə tövsiyələrini çatdırıb. "Məqsədli olmaq, düzgün plan qurmaq və özünə inanmaq uğurun əsas açarıdır. Zəhmət və ardıcıl çalışma insanı istədiyi nəticəyə aparır", – deyə Aysu Qasımova əlavə edib.

O, gələcəkdə magistratura təhsilini seçdiyi sahədə davam etdirərək elmi fəaliyyətlə məşğul olmaq və biliklərini daha da genişləndirmək niyyətindədir. O bu mərhələnin yalnız şəxsi uğur olmadığını, həm də gələcək karyerasında uğurlu addımlar atmaq üçün vacib təkan olduğunu vurğulayıb.

# Naxçıvanın "Turan" Döyüş Klubundan iki idmançı Avrasiya çempionu olub

Azərbaycanda AIGA təşkilatının qrappling üzrə ilk Avrasiya çempionatı keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata əsasən fevralın 13-dən 15-dək davam edən yarışın görüşləri "Sərhədçi" İdman Mərkəzində reallaşıb. Çempionatda 30-dan çox ölkəni təmsil edən 700-dən artıq idmançı müxtəlif yaş və çəki kateqoriyalarında mübarizə aparıblar. Azərbaycan 69 qızıl, 84 gümüş və 89 bürünc medalla ölkə sıralamasında birinci olub.

Mötəbər yarışda ölkəmizi təmsil edən komandalardan biri də "Turan" Döyüş Klubu olub. Klubun baş məşqçisi Xəyal Abdullayevin rəhbərliyi ilə yarışa 15 idmançı qatılıb. Nəticələrə əsasən komanda Avrasiya çempionatını 2 qızıl, 1 gümüş və 7 bürünc medalla tamamlayıb.



Təmsilçilərimizdən Rəhim Quluzadə (45 kq) 16-17 yaşlı idmançıların, Həmid Ələkbərli (72 kq) isə 14-15 yaşlıların yarışında bütün rəqiblərini məğlub edərək çempion adına sahib çıxıblar.

Klubun digər idmançılarından Nurəddin Əliyev (45 kq) 16-17 yaş kateqoriyasında ikinci olub. 14-15 yaş qrupunda Mahir Səfərov (41 kq), Əli Əbilov (45 kq), Əbülfəz Cəfərov (55 kq), Tunar Hüseynli (55 kq), Əli Qəribov (72+ kq), həmçinin 16-17 yaş qrupunda Nurəli Əsgərov (55 kq) və Ravil Alməmmədov (72 kq) öz çəki dərəcələrində üçüncü yerə layiq görülüblər.

### İtmişdir

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Rəhimov Ağəli Babalı oğlunun adına olan JN-219 nömrəli, 10304018 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Məmmədov Hüseyn Məmməd oğlunun adına olan JN-12A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Əsədov Əli Məmməd oğlunun adına verilmiş 91 inventar nömrəli fərdi yaşayış evinin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DSMF-nin balansında olan 68-AA-030 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 38

Nömrəyə məsul: Nail Əsgərov, Elnurə Cəfərova, Əhməd Əhmədov
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.